www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 mart 2017-ci il Çərşənbə axşamı № 62 (6676) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda gənci gecə klubunda döyüb öldürdülər

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycanlı çoban şirkət sahibi olub, milyonçuya çevrilib - sensasion gəlişmə



Qərbli jurnalistlər "Azərbaycan Dəmir Yolları" QSC-nin adı qarışan 56 milyonluq korrupsiyanın yeni təfərrüatlarını üzə çıxarıblar

yazısı səh.7-də

### Mərkəzi Bankdan banklara yeni qadağa: məqsəd nədir?

yazısı səh.3-də

### Rusiyada başlayan siyasi hərəkətlənmə ətraf ölkələrə keçə bilərmi...

yazısı səh.6-da

### Azərbaycanda "evet" və "hayır" tərəfdarları

yazısı səh.10-da

### Yazda hansı xəstəliklər üzə çıxır - həkim rəyi

yazısı səh.13-də

### Millimizin alman məğlubiyyəti və gələcək ümidlər...

yazısı səh.10-da

### Bayram bitsə də, bazarlarda bahalaşma bitmək bilmir

yazısı səh.3-də

### Serj Sərkisyan özü ilə birlikdə Ermənistanı da batırmaq istəyir

yazısı səh.11-də

### "Azəryolservis"in əməkdaşı "ASAN Kommunal"ın işini iflic edir

yazısı səh.13-də

### Turistlərin Bakıda Novruzlu günləri - əməkdaşımız paytaxt qonaqlarını söhbətə çəkdi

yazısı səh.15-də

### Amerikada Tramp qovğası bitdimi...

yazısı səh.12-də

## Kremlin "mart inqilabı planı"

# PUTİN MEDVEDYEVİ QURBAN VERİR - İDDİA

Rusiyada baş verənlərin arxasında baş naziri bitirmək məqsədi dayanır; Putin niyə dostundan canını qurtarmaq istəyir?




yazısı səh.5-də

## Moskvada kritik müzakirə - İran Qarabağ oyununa girir

Ruhani təzə ildə ilk xarici səfərini Rusiyaya edəcək - əsas hədəf; Şuşa məscidində qanunsuz qazıntı işlərində İran izi - təsadüfmü?; "Tehranla Bakı arasında konfrontasiyanı əngəlləyən tək amil odur ki..."

yazısı səh.8-də



Riçard Hoqland

*Amerikalı həmsədr:*

### "Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 3 hissəli plan var"

yazısı səh.2-də



*Fərəc Quliyev:*

### "Artıq Nazirlər Kabineti ilə bağlı qərar verməyin zamanı çatıb"

yazısı səh.4-də



### Sabiq nazirin oğlu Anar Məmmədov "Paşa Bank"a borcunu ödəyib

yazısı səh.4-də

# “Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 3 hissədən ibarət plan var” - amerikalı həmsədr

## Həmsədrlər prezidentləri bir araya gətirmək istəyir



**“Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar masasında bir sıra ağlabatan planlar var”.**

APA-nın “armenpress.am”a istinadən verdiyi məlumata görə, bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland deyib. “Ola bilsin ki, bu planlar yekun deyil, amma onlar hazırda dövriyyədədir. Bu isə o deməkdir ki, onlar ətrafında danışıqlar davam etməlidir”, - deyə həmsədr söyləyib.

**R. Hoqland bildirib ki, münaqişə tərəflərinin rəhbərləri siyasi iradə nümayiş etdirərək danışıqlar masasına qayıtmalıdır. “Lavrov planı”na dair sualı cavablandıran diplomatın sözlərinə görə, vasitəçilər bu ifadədən istifadə etmir:** “Biz belə ifadə işlətmirik. Dövriyyədə olan plan var və o, 3 hissədən ibarətdir. Lakin hazırda mən bu planın detallarını açıqlamağı məqsədəuyğun hesab etmirəm. Tərəflər onun üzərində işləyir”.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri yaxın gələcəkdə iki ölkənin dövlət başçılarının görüş imkanlarını müzakirə edəcəklər.

Musavat.com-un xəbərinə görə, bunu İrəvanda jurnalistlərə açıqlaması zamanı ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland deyib. “Yüksək səviyyədə görüşlə bağlı razılaşma var.

Biz və siyasi rəhbərlik çalışırıq ki, bu görüşün keçirilməsi üçün meydan əldə edək. Proses gedir, bu, sirr deyil. Hesab edirəm ki, yaxın zamanlarda Ermənistan və Azərbaycanın XİN başçıları prezidentlərin görüşünə hazırlığı müzakirə edəcəklər, hazırda diplomatik proses gedir"-həmsədr bildirib.

Diplomat deyib ki, münaqişə tərəfləri danışıqlar masası arxasında oturmalı və sülh yolu ilə tənzimlənmənin mümkün yollarını müzakirə etməlidir. Həmsədr əlavə edib ki, sabah, 28 martda Xankəndinə gedəcək və Dağlıq Qarabağdakı rejimin rəhbərliyi ilə görüçəcəklər. O deyib ki, münaqişənin güc yolu ilə həllini istisna edir.

Ancaq diplomat həmişəki kimi, Ermənistanın təcavüzkar mövqeyinə reaksiya verməyib, həmçinin Serj Sərkisyanın Xankəndi şəhərinə qanunsuz səfərinə və oradan Azərbaycanı “İsgəndər”lə hədələməsinə toxunmayıb.

# Polisin xidməti avtomobilini zədələyən şəxs saxlanıldı



**Göygöldə polisin xidməti avtomobilini zədələyən şəxs saxlanılıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, yanvarın 17-də Göygöl Rayon Polis Şöbəsinin “Fiat Doblo” markalı xidməti avtomobilini zədələyən Şəmkir sakini, 49 yaşlı Talıb Bayramov saxlanılıb.**

O, toy məclisində olan zaman bacısı Məhsəti İbrahimovanın avtomobillə vurulması xəbərini eşidib və sərxoş halda məclisi tərk edərək polis avtomobilinə hücum çəkib. Bir müddət yaşadığı Şəmkirin Qılıncbəyli kəndindən ayrı düşən T. Bayramov müxtəlif ünvanlarda qalıb. Göygöl Rayon Polis Şöbəsinin əməkdaşları onu Abşeron rayonu Masazır qəsəbəsində saxlamağa müvəffəq olub.

Faktla bağlı Cinayət Məcəlləsinin xuliqanlıq maddəsi ilə iş başlanılıb. İstintaq aparılır.


## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Rüşvətxorluğa görə nəzərdə tutulan cəza ağırlaşdırılır



**Azərbaycanda vəzifə saxtakarlığı ilə bağlı cəzanın cərimənin miqdarı artırılır.**

“Report” xəbər verir ki, Cinayət Məcəlləsinə əsasən, vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs , eləcə də vəzifəli şəxs olmayan dövlət qulluqçusu və ya yerli özünüidarə orqanı qulluqçusu tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 1 ildən 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə , əmlakı müsadirə olunmaqla iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Dəyişiklik təklifinə əsasən, cərimənin miqdarı 1500 manatdan 3 min manatadək artırılır.

Cinayət Məcəlləsində rüşvət verməyə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsinə görə 1000 manatdan 2 min manatadək miqdarda cərimə və ya 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırma nəzərdə tutulub. İndi isə cərimənin miqdarı 5 min manatdan 8 min manatadək artırılır.

Vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət verməyə görə 2 min manatdan 4 min manatadək miqdarda cərimə və ya 4 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bu müddəada da cərimənin miqdarı artırılaraq 8 min manatdan 12 min manatadək edilməsi təklif olunur.

Məcəlləyə əsasən, dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə, bu əməllər xeyli miqdarda törədildikdə 9 min manatdan 10 min manatadək miqdarda cərimə edilməklə 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. İndi isə cərimənin 9 mindən 13 minədək artırılması təklif edilir.

Vəzifə səlahiyyətlərini aşmaya görə də cərimənin miqdarı artırılır. Belə ki, qanunvericiliyə əsasən, hazırda vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda 1000 manatdan 2 min manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir. Dəyişikliyə əsasən isə cərimənin 2 min manatdan 4 min manatadək artırılması təklif olunur.



# Azərbaycanda Hitlerin nazirinə məxsus silahı qanunsuz ələ keçirən şəxsin məhkəməsi gedir

**Bakı Ağır Cinayətlər Məhkəməsində qanunsuz olaraq soyuq silah satmaqda və dələduzluqda təqsirləndirilən Vəli Cəlalovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın xəbərinə görə, hakim İradə Həsənzadənin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edərək, V. Cəlalovun 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Proses aprelin 30-da davam etdiriləcək.

İttihama görə, V. Cəlalov özgənin əmlakını qanunsuz olaraq etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirmək məqsədilə tanışı Cavid Bağırova məxsus, dəyəri 50 min manat təşkil edən, Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Ekspert Komissiyasının rəyinə əsasən, 1936-cı ildə Almaniyada istehsal olunmuş, Adolf Hitlerin dostu, arxitektor və Almaniyanın silahlanma və hərbi naziri olmuş Albert Şpeyerin adına hazırlanan qoşalüləli, qızıl və gümüşlə bəzədilmiş bir ədəd ov tüfəngini satacağını deyərək, silahı ondan alıb və qaytarmayıb. Zərərçəkmiş isə buna görə polisə şikayət edib.

Bundan başqa, keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Vəli Cəlalovdan tarixi əhəmiyyət kəsb edən, satış məqsədilə əldə etdiyi XVII və XVIII əsrə aid, Osmanlı İmperiyasında istifadə olunan, qızıl və gümüşlə işlənmiş qılınc götürülüb.

V. Cəlalova qarşı Cinayət Məcəlləsinin 228.4 (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən tullayıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla) və 178.3.2. (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə

# Paytaxtın bu küçələrində hərəkət 5 gün məhdudlaşdırılacaq

**Azərbaycanda “Formula-1" yarışının təşkilatçısı Bakı Şəhər Halqası Əməliyyat Şirkəti bu il iyunun 23-25-də paytaxtda keçiriləcək Azərbaycan Qran Prisi ilə bağlı hazırlıq işlərini davam etdirir.**

Bakı Şəhər Halqasından “APA-Economics”ə verilən məlumata görə, bu gündən etibarən trekin keçdiyi küçələrdə təhlükəsizlik baryerlərinin quraşdırılması işlərinə start verilir. Trekin Xəqani küçəsinin Puşkin və Bülbül küçələri ilə olan kəsişmələri arasındakı hissəsində martın 27-dən 31-dək hər gün saat 22:00-dan 06:00-dək baryerlərin quraşdırılması işləri aparılacaq.

Paytaxt sakinlərindən göstərilən müddət ərzində bu ərazidə avtomobillərini park etməmək xahiş olunur.



# Mikayıl Müşfiqin heykəli yerinə qoyuldu

**Bir müddət əvvəl böyük səs-küyə səbəb olan Mikayıl Müşfiqin heykəli yerinə qaytarılıb. Bu barədə “Yeni Müsavat”a açıqlama verən Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun sözlərinə görə heykəlin yeri bir qədər dəyişdirilib:**

“Abidə martın 27-də səhər saatlarında yenidən yerinə qaytarılıb. Yeni salınan parkda tamamlanma işləri bitməyib, buna baxmayaraq, heykəlin özü yerinə qoyulub. Qeyd edim ki, heykəlin yeri bir qədər dəyişdirilib, çünki onun keçmiş yeri yol ərazisinə düşür, yəni həmin yerdə indi yol olacaq”.

**“Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov** musavat.com-a bildirib ki, martın 27-də şair Mikayıl Müşfiqin büstü yerinə qoyulub: “Amma heykəlin ətrafı tam hazır deyil. Hava şəraiti imkan versə, yaxın günlərdə orda tamamlama işləri aparılacaq”. S.Məmmədov deyib ki, açılışa medianı da dəvət edəcəklər: “Biz Mikayıl Müşfiqin heykəlinin yenidən ora qoyulmasında jurnalistlərin iştirakında maraqlıyıq. Gəlib, özünüz şahid olarsız ki, nə qədər yaxşı bir iş görülüb”.

Xatırladaq ki, büstün götürülməsi böyük səs-küyə səbəb olmuş və cavabdeh olan 3 nəfər cəzalandırılmışdı.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017

# Mərkəzi Bankdan banklara yeni qadağa - məqsəd nədir?

## AMB banklara internet bankinq vasitəsilə hüquqi şəxslərin fiziki şəxslərə köçürmə əməliyyatlarını məhdudlaşdırmağı tapşırıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) martın 17-də axşam saatlarında ölkədə fəaliyyət göstərən banklara məktub göndərib. Bu barədə "APA-Economics"ə bank sektorundakı mənbələr xəbər verib. Məlumatda bildirilir ki, AMB banklara internet bankinq vasitəsilə hüquqi şəxslərin fiziki şəxslərə köçürmə əməliyyatlarını məhdudlaşdırmağı tapşırıb.**

"Hüquqi şəxslərdən nağdlaşdırma zamanı 1%-lik vergi tutulur. Beləliklə, hüquqi şəxslər fiziki şəxslərin (sahibkar olmayan - red.) hesabına köçürmə edərək vergidən yayına bilir. Mərkəzi Bankın bu addımı məhz vergidən yayınmanın qarşısını almağa hesablanıb", - deyə həmsöhbətimiz qeyd edib.

Xatırladaq ki, Milli Məclisin 2016-cı il dekabrın 16-da "Nağdsız hesablaşmalar haqqında" qəbul etdiyi qanuna görə banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması məqsədilə Vergi Məcəlləsinin layihəsinə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1% dərəcəsi ilə sadələşdirilmiş vergi tutulur.

**"Yeni Müsavat"a açıqlamasında bu məlumatı dəyərləndirən iqtisadçı ekspert, bank sektoru üzrə mütəxəssis Əkrəm Həsənov Mərkəzi Bankın belə bir tapşırıq vermək səlahiyyətinin olmadığını bildirdi:** "Belə bir məktubun olması şübhəlidir. Çünki Mərkəzi Bank artıq bir ildir ki, bank nəzarəti orqanı deyil və banklara belə göstərişlər verə bilməz. Həm də sözügedən nağdlaşdırmaya görə ödəmə mənbəyində 1 faiz dərəcəsi ilə vergini tutmayaraq qanunu ən çox pozan elə Mərkəzi Bankın özüdür. Belə ki, bankların da Mərkəzi Bankda müxbir bank hesabları var və oradan vaxtaşırı nağd pul çıxarırlar, amma Mərkəzi Bank həmin puldan 1% vergini tutmur və Vergilər Nazirliyi də buna göz yumur. Güman edirəm ki, belə xəbərləri banklar özləri yayır ki, müştəriləri hesablarındakı vəsaitləri çıxarmasın".




**Əkrəm Həsənov bu addımın səbəbini belə izah etdi:** "Məlum olduğu kimi, bu gün banklarımızda ciddi likvidlik problemi var. Əmanətlər azalır, problemli kreditlər artır, banklara etibar edib orada pul saxlayan azdır. Odur ki, banklar min cür yolla müştərilərinə pul çıxarmağa mane olur. Əslində oxşar müraciəti banklara bank nəzarəti orqanı olan Maliyyə Bazarlarına Nəzarət Palatası bayramdan əvvəl etmişdi və həmin xəbəri də banklar köçürmə əməliyyatlarına dair məhdudiyyət kimi qələmə verməyə çalışmışdı. Lakin Palata yalnız demişdi ki, belə köçürmələri şübhəli əməliyyat hesab etsəz, Palataya məlumat verin. Xatırladıram ki, Palata həmçinin maliyyə monitorinq orqanıdır. Yəni çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə aparır. Təbii, kimsə sırf vergidən yayınmaq üçün vəsaitini fiziki şəxslərə köçürürsə, bu, pozuntudur və tədbir görülməlidir. Amma indi gəlin baxaq görək ki, bu hansı halda baş verir. Hüquqi şəxs fiziki şəxsə hər hansı işə və ya xidmətə görə pul köçürürsə, burada ümumiyyətlə vergidən yayınmadan söhbət belə ola bilməz. Çünki həmin fiziki şəxs aldığı vəsaitdən gəlir vergisi ödəyəcək (azı 14% dərəcəsi ilə).

Deməli, yayınma yalnız vəsaitin bağışlanması halında ola bilər. Vergi Məcəlləsinə əsasən 1000 manatadək hədiyyədən vergi tutulmur. Tutaq ki, hüquqi şəxs hansısa fiziki şəxsə yardım məqsədilə 3000 manat köçürmə edib. Pulu alan 2000 manatdan 14% vergi ödəyəcək. Deməli, yenə də yayınma faktı yoxdur. Bəs 1000 manat və ya daha azı yardım edilibsə? Bu halda vergi yoxdur və buna görə də ehtimal etmək olar ki, əslində "yardım"ın məqsədi vergidən yayınma olub. Yəni hüquqi şəxs vəsaiti fiziki şəxsə yardım məqsədilə köçürüb ki, fiziki şəxsin vasitəsilə vergi ödəmədən nağdlaşdırsın. Amma belə hallar müntəzəm baş vermirsə, yenə də vergidən yayınmanı sübut etmək çətindir".

**Əkrəm Həsənov onu da vurğuladı ki, belə hallar tez-tez baş verirsə, həmin hüquqi şəxs haqqında Palataya məlumat verilməlidir:** "Məgər hüquqi şəxs həqiqətən də kiməsə yardım edə bilməz? Amma belə hallar tez-tez baş verirsə, bu, vergidən yayınmadır. Buna görə də banklar tez-tez belə köçürmə edən hüquqi şəxslər haqda Palataya məlumat verməlidir ki, Palata həmin vəsaitin digər bankdakı aqibəti ilə maraqlana bilsin. Axı istisna deyil ki, pulu alan fiziki şəxs də onu nağdlaşdırmır və elə nağdsız qaydada xərcləyir. Burada heç bir yayınma yoxdur. Yəni hüquqi şəxsin fiziki şəxsə pul köçürmələri yalnız müəyyən hallarda vergidən yayınma məqsədi daşıya bilər və bu, sübut olunmalıdır. Ümumən belə köçürmələrin qadağan edilməsi mümkün deyil və qanunazidd olardı. Sadəcə, banklar qəsdən belə məktubları şişirdir və mənasını dəyişir ki, vəsaitləri çıxaran olmasın. Məsələn, eynilə bankların bir qismi hüquqi şəxslərə ayda 30000 manatdan çox pul nağdlaşdırmağa imkan vermir və "Nağdsız hesablaşmalar haqqında, Qanuna istinad edirlər. Halbuki həmin qanunda nağdlaşdırmaya məhdudiyyət yoxdur. Nağd ödənişlərə limit var. Yəni hüquqi şəxs hesabından istədiyi qədər nağd pul çıxara bilər. Sadəcə, ayda yalnız onun 30000 (bəzi hüquqi şəxslər 15000) manatını nağd xərcləyə bilər. Amma banklar müştərilərini hətta bu məsələdə belə aldadır".

❑ **Nərgiz LİFTİYEVA**

# Bayram bitsə də, bazarlarda bahalaşma bitmək bilmir

## **Deputat:** "Elə mallar var ki, Azərbaycanda istehsal olunur, onların qiyməti niyə qalxmalıdır?"

**Novruz bayramından sonra qiymət artımının səngiməsi gözlənilsə də, bu baş vermədi. Xüsusən də ərzaq və kənd təsərrüfatı məhsullarında qiymət artımı davam edir. Hazırda gündəmin əsas mövzularından biri xaricdən idxal olunan bananın 4 manatdan baha satılmasıdır. Normal günlər 2.50 manata satılan, bayram ərəfəsində 3 manata kimi bahalaşan bananın kiloqramı hazırda 4 manatın üzərindədir.**



Bəs görəsən, bahalaşmanın bu cür sürətlə davam etməsinin səbəbləri nələrdir?

"Yeni Müsavat"a açıqlamasında bu məsələyə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov bildirdi ki, qiymət artımının iki tərəfi var: subyektiv və obyektiv: "Obyektiv səbəb odur ki, ola bilər xammalını xaricdən gətirir və ya həmin məhsul Azərbaycanda istehsal olunmur. Bu başa düşüləndir. Ancaq elə mallar var ki, Azərbaycanda istehsal olunur. Onların qiyməti niyə qalxmalıdır? Ölkədə Novruz bayramı öncəsi qiymətlərin qalxması faktdır və bunu danmaq olmaz. Artıq Azərbaycanda bayram öncəsi qiymət artımı "ənənə" halını alıb. Ancaq bayram bitəndən sonra da qiymətlər əvvəlki səviyyədə qalır, düşmür. İndi isə bahalaşma davam edir. Ola bilər ki, burada sahibkarların, adi ticarətçilərin, möhtəkirlərin öz payı var. Amma bu, xalqı qiymətlərin qalxması problemindən azad etmir. Buna göz yummaq olmaz. Hazırda bahalanma inkarsız faktdır. Xüsusilə ərzaq mallarında bahalanma özünü daha açıq şəkildə göstərir. Keçən il mal ətinin bir kiloqramı 8-9 manat idi. İndi isə 12-13 manata qalxıb. Bu da aydındır ki, ölkədə kifayət qədər ət olsaydı, qiymətlər bu qədər bahalaşa bilməzdi".

**Deputat onu da vurğuladı ki, hökumətin bazara inzibati nəzarət etməsi qaçılmazdır:** "Bananın bahalaşması başa düşüləndir ki, Azərbaycanda yetişmir, xaricdən gətirilir. İndi bunun qiymətində müəyyən artım ola bilər. Ancaq digər məhsulların qiymətinin artması problemdir. Bu problemə hökumət ciddi şəkildə nəzarət etməlidir. Qiymət artımına nəzarət mexanizmi işə düşməlidir. Bazara nəzarət etməyə cavabdeh olan dövlət qurumları işləməlidirlər. Digər tərəfdən, manat dollar qarşısında bahalaşırsa , dəyəri artırsa, necə ola bilər ki, bazarda qiymət artımı baş verir. Bunlar anlaşılmaz məsələlərdir. Bu məsələlərə aydınlıq gətirilməlidir".

**İqtisadçı ekspert Rəşad Həsənov isə vurğuladı ki, bayramdan sonra bahalaşmanın davam etməsi təbii bir prosesdir:** "Çünki hələlik Azərbaycanda bazarlar faktiki olaraq valyuta məzənnəsində baş verən dəyişiklikləri qiymətləndirə bilməyib. Çünki həm administrativ qaydada bu qiymətləndirməyə müdaxilələr oldu. Amma hazırda müşahidə olunan təsir alıcılıq gücünün azalmasıdır. Ola bilsin ki, kənd təsərrüfatı məhsullarının bir qismində mövsümi olaraq qiymətlərin bahalaşması prosesi baş versin. Çünki ehtiyat olaraq yığılmış kənd təsərrüfatı məhsullarının bir hissəsi bayram ərəfəsində satıldı. Məhz bu səbəbdən də ola bilsin ki, bu məhsulların satışında azalma baş verib".

**Ekspertin sözlərinə görə, başqa bir səbəb gəlir səviyyəsinin aşağı düşməsidir:** "Bazarların faktiki olaraq valyuta məzənnəsində olan dəyişikliyi tam qiymətləndirə bilməməsi marjanı aşağı salır. Həm də sahibkarların bu istiqamətdə aktivliyini zəiflədən amillərdən biri olur. Belə olduğu təqdirdə bəzi məhsullarda faktiki olaraq sahibkarlar qiymət artımına getmək imkanı əldə edirlər. İnhisarçılığın da bu bahalaşmada rolu var. Ancaq düşünmürəm ki, qısamüddətli dövrdə bu amil faktiki olaraq bazarda qiymət dəyişikliyini şərtləndirir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017

**Keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun təsisçilərindən olduğu "Garant" holdinqin əmlakları üzərinə həbs qoyulub. Qərar "Paşa Bank" ASC-nin iddiası əsasında Sumqayıt Apelyasiya Məhkəməsi tərəfindən çıxarılıb. Qərar bu ilin yanvarında çıxarılıb və orada deyilir ki, cavabdeh tərəf heç bir səbəb göstərmədən apelyasiya şikayətindən imtina edib.**

# Anar Məmmədov "Paşa Bank"a borcunu ödəyib

## Hüquqşünas Nihat Axundov deyir ki, "Garant" holdinqin əmlakları üzərindən həbs də götürülüb



Anar Məmmədov

Ziya Məmmədov oğlu Anar Məmmədovun əmlakına məhkəmə qərarı ilə həbs qoyulması ilə bağlı məsələdən danışıb. O, gununsesi.info-ya bildirib ki, informasiyadan xəbərsizdir: "Mən bilmirəm söhbət nədən gedir. Oğlumun fəaliyyəti, daha doğrusu, işləri ilə məşğul olmuram. Ona görə də mən bu sualı cavablandıra bilməyəcəm".

Məlum olub ki, "Paşa Bank" ASC-nin keçmiş nəqliyyat nazirinin ailəsi ilə mülk üstündə bir neçə məhkəmə çəkişməsi var. Anar Məmmədov və şirkətlərinin "Paşa Bank"a kredit borcu var. Hazırda A.Məmmədov Londonda yaşayır.

**Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşının suallarını cavablandıran "Garant" holdinqin hüquqşünası Nihat Axundov deyib ki, holdinqin "Paşa Bank"la kredit məsələsi olub və bitib:** "Həmin məsələ artıq yekunlaşıb və verilmiş qərarlar da məhkəmələr tərəfindən ləğv olunub. Hazırda "Garant" holdinqlə "Paşa Bank" arasında heç bir mübahisə, "Garant" holdinqin "Paşa Bank" qarşısında isə hər hansı bir öhdəliyi yoxdur".

**Nihat Axundov bildirib ki, "Garant" holdinqin əmlakları üzərinə həbs qoyulması qaldırılmış iddianın təminetmə tədbiri olub:** "Qərar çıxarılmışdı, şikayət verildi və həmin qərarlar da ləğv olundu. Hazırda mətbuatda istinad olunan qərarların heç biri qüvvədə deyil".

**N.Axundov "Garant" holdinqin "Paşa Bank"dan götürdüyü kreditin həcmini açıqlamayıb. Deyib ki, hazırda həmin kreditlər tam şəkildə ödənilib:** "Hazırda tərəflər arasında kredit mübahisəsi yoxdur".

**N.Axundov A.Məmmədovun Londondan Azərbaycana qayıdıb-qayıtmayacağı ilə bağlı suala cavab verməkdən imtina edib. Vəkil A.Məmmədovun ölkədə olmadığı müddətdə "Garant" holdinqin təsisçilərinin dəyişmədiyini də bildirib:** "Anar Məmmədov "Garant" holdinqin təsisçilərindəndir".

**Məhkəmə çəkişmələrinin mahiyyəti haqda vəkil konkret danışmayıb:** "Qərarlar olub və artıq həmin qərarlar yuxarı instansiya məhkəmələri tərəfindən ləğv olunub".

Qeyd edək ki, məhkəməyə cavabdeh qismində "Garant İnşaat Sənaye" MMC, "Garant Holding" MMC, "Azpod" MMC və Anar Məmmədov çıxarılıb. Abşeron Rayon Məhkəməsi onlara məxsus bir neçə əmlaka ("Bakı şəhəri, Nərimanov rayonu, 507-ci küçə, 2093-cü məhəllə"də yerləşən müəssisə (eyni zamanda əmlak kompleksi), "Nərimanov rayonu, İslam Abışov küçəsi, 5A" ünvanında yerləşən qeyri-yaşayış binası və Anar Məmmədovun mülkiyyətindəki "Nərimanov rayonu, Məmməd Araz küçəsi, 25V, giriş 5" ünvanında yerləşən 9 saylı qeyri-yaşayış sahəsi) həbs qoyub. Dekabrın 2-də verilən qərara görə, məhkəmə işi tamamlananadək həmin əmlakların bağışlanması, satılması, məhv və istismar edilməsi cavabdehlərə və digər şəxslərə qadağan edilib. "Paşa Bank" ASC cavabdehlər - "Garant İnşaat Sənaye" MMC-yə (əvvəlki "Azbentonit" sement və tikinti qatqıları zavodu), "Garant Holding" MMC-yə, "Azpod" MMC-yə və Anar Məmmədovun özünə qarşı qarşı iddia qaldırıb. Söhbət 1 milyon 141 min 203 manat 17 qəpikdən gedib. Bu, bankdan götürülən kredit, kredit faizləri və hesablanmış cərimənin toplam məbləğidir. Bank məhkəmədən borcun ipoteka predmetinə yönəldilməsinini də tələb etmişdi. Apelyasiya şikayəti verən "Garant İnşaat Sənaye" MMC banka olan borcu müqabilində 2 milyon 300 min manatdan yuxarı dəyərdə əmlak təminatı verdiyini göstərmişdi. Şikayətdə vurğulanmışdı ki, Abşeron Rayon Məhkəməsinin qərarında bu hal nəzərə alınmayıb və "qeyri-mütənasib olaraq, tərəflərin mülkiyyət hüquqlarının həyata keçirilməsi kobud şəkildə pozulub". Ancaq daha sonra Anar Məmmədov şikayətini geri götürüb. "Bakı şəhəri, Nərimanov rayonu, 507-ci küçə, 2093-cü məhəllə"də tikinti sektorunda da fəaliyyət göstərən "ZQAN Konstrakşn" MMC, "Məmməd Araz küçəsi, ev 25V" ünvanında isə keçmiş "Bank of Azerbaijan" ASC-nin 18 saylı filialı yerləşirdi.

"Paşa Bank" ASC eyni iddia tələbi ilə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə də müraciət edib. Burada istəyinə nail olmayan bank oktyabrın 31-də Bakı Apelyasiya Məhkəməsində əmlakın üzərinə həbs qoydura bilib. Son nəticəsi barədə tərəflərin məlumat vermədiyi bu prosesdə bankın borcluları "Garant Holding"MMC, "Zqan Holdings Limited" şirkəti (Birləşmiş Ərəb Əmirlikləri), "Azpod" MMC və "Ameritex LLC" MMC olub. Bu işlə bağlı məhkəmə çəkişməsinin nə yerdə olduğu barədə hələ də bilgi yoxdur.

❑ E.MƏMMƏDƏLİYEV



# İsveç parlamenti spikerinin kürsüsündə əyləşən azərbaycanlı jurnalistin oğlu...

## Rahib Kazımlı: "Bu arzunun reallaşması da mümkündür"

Hazırda İsveçdə yaşayan "Yeni Müsavat"ın keçmiş əməkdaşı Rahib Kazımlının oğlu Sahibin İsveç parlamentindəki fotosu sosial şəbəkələrdə böyük maraq doğurub.

6-cı sinif şagirdi olan Sahib Kazımlı Stokholm məktəbində əla qiymətlərlə oxuyur, şəkli məktəbin əsas korpusunun foyesində vurulub. Martın 26-da S.Kazımlı və digər əlaçı şagirdlər İsveç parlamentində olaraq, deputatlarla, parlamentin sədri ilə görüşüblər. Parlament sədri Urban Ahlin öz kreslosunu və ədalətli polemika rəmzi olan 140 illik çəkici Sahibə etibar edib. Şagirdlər parlamentin plenar iclasında iştirak edərək, deputatların ölkənin problemləri ilə bağlı müzakirəsinə qulaq asıblar. İsveçə köç edən azərbaycanlı jurnalistin oğlunun bu cür qürurverici fotosu ictimaiyyətdə xüsusi rəğbətlə qarşılanıb. Məsələ ilə bağlı internet üzərindən keçmiş əməkdaşımız Rahib Kazımlının təəssüratlarını öyrənməyə çalışdıq. R.Kazımlının sözlərinə görə, oğlunun parlamentə-riksdaqa gedişi ilk dəfə imiş:

"Düzü, heç biz də nəticənin belə olacağını gözləmirdik, düşünürdük ki, həmişə olduğu kimi, bir az gəzib dolaşacaqlar, verilən informasiyalara qulaq asacaq, bununla da bitəcək. Amma göründüyü kimi, hər şey fərqli oldu. Şagirdlər riksdaq binasının demək olar ki, ən böyük əhəmiyyətli hissələrini gəzib, parlament haqda məlumatları dinlədikdən sonra deputatlarla və parlamentin spikeri ilə ünsiyyətdə olublar".

**"Sahib gələcəkdə spiker olmağı arzulayırmı" sualımıza R.Kazımlı bu cür cavab verdi:**

"Sahib evə gələndə bunun ona necə təsir etdiyini, nə vaxtsa parlamentə seçilmək istəyib-istəmədiyini soruşdum. Onun cavabı belə oldu ki, bunu istisna etmir. Əslində bunun özü də diplomatik cavabdır və burda uşaqları məhz bu cür danışmağa öyrədirlər. Yəni hələ zamanı çatmamış, qeyri-müəyyən məsələlərdə qəti cavab vermirlər. Bunu ən azı mən istərdim və bunu onun özünə də dedim. Evə gələndə reaksiyasından bu fikrimin onun da xoşuna gəldiyini anladım. Hər halda, bunu gələcək göstərəcək və burdakı imkanları nəzərə alsaq, bu arzunun reallaşması da mümkündür. Hər şey Sahibin özündən asılıdır".

**R.Kazımlının sözlərinə görə, bu cür təcrübədən təkcə İsveç ölkəsi yararlanmır. Bunun isə əhəmiyyəti ondan ibarətdir ki, uşaqlar hələ erkən yaşlarından yaşadıqları ölkənin necə idarə edildiyini, özlərinin vətəndaş olaraq bu idarəetmədə hansı imkanlara malik olduqlarını öyrənirlər:** "Hələ Sahib bağçaya gedən zaman orda 3-4 yaşında uşaqların səsvermə yolu ilə gündəlik gəzinti yerini müəyyən etdiklərini görəndə təəccüblənmişdim. Uşaqların öz hüquqlarını bilməsi və bundan istər məktəbdə, istərsə də ailədə yararlanmaları da bu siyasi tərbiyənin nəticəsidir".

Qeyd edək ki, Avropanın əksər ölkələrində, eləcə də ABŞ-a daxil olan ştatlarda bir qayda olaraq şagirdlər tez-tez parlamentə aparılır, onların ciddi məsələlərə dair iclaslarda müzakirələri dinləməsi təmin edilir. Azərbaycanda da bu cür tədbir ötən ilin 1 iyununda keçirilmişdi. Belə ki, parlamentin sonuncu plenar iclasında bir qrup uşaq da iştirak etmişdi. 2007-ci ilin 1 iyun ayında isə Milli Məclisdə Azərbaycan Uşaq Parlamentinin ilk iclası olmuşdu.

❑ Xalidə GƏRAY

# "Artıq Nazirlər Kabineti ilə bağlı qərar verməyin zamanı çatıb"

**Fərəc Quliyev:** "Bəzi məmurlar işlərinə məsuliyyətsiz, israfçı yanaşırlar"
**Vahid Əhmədov:** "Dövlət başçısı bu barədə öz qərarlarını verəcək"
**Mehman Əliyev:** "İslahatlar hələ başlamayıb"

**Hazırda siyasi sferada müzakirə olunan məsələlərdən biri də Azərbaycan hakimiyyətinin iqtisadi və siyasi sahələrdə həyata keçirəcəyi islahatlardır. Novruzdan öncə bayram istirahəti bitdikdən sonra iqtidarın sürətlə islahatlara başlayacağı deyilirdi...**



Əsas diqqətlər vitse-prezidentlik institutunun formalaşmasına yönəlib. I vitse-prezident təyinatı olsa da, vitse-prezident postları boş qalıb. Bu postlara yaxın günlərdə təyinatlar olacağı ilə bağlı fikirlər dolaşır. İqtisadi böhranın səngiməkbilmədiyi bir zamanda hökumətin əsas diqqəti islahatlara yönəldəcəyi deyilir. Büdcəyə qənaət üçün bir çox paralel qurumların birləşdiriləcəyi vurğulanır. Vəzifə təyinatlarında isə gənc kadrlara ciddi önəm veriləcəyi ilə bağlı fikirlər təkcə ölkə ictimaiyyəti daxilində deyil, hakimiyyət dəhlizlərində də dolaşır. Nazirlər Kabinetinin taleyinin necə olacağı isə hələ bilinmir. Vitse-prezidentlik institutunun yaradılmasından sonra formal quruma çevrilən Nazirlər Kabinetinin ləğvi ilə bağlı da anonslar verilir. Bayramqabağı parlamentin son iclasında bununla bağlı səslənən fikirlər bir çox mətləblərdən xəbər verir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hesab edir ki, islahatları bayramla bağlamaq doğru deyil:** "Əsas olan odur ki, Strateji Yol Xəritəsi bütün istiqamətlərdə müəyyənləşib. Doğrudan çox sanballı, yaxşı işlənən sənəddir. İslahatlarla bağlı gecikmək olmaz. Dövrün də tələbi odur ki, islahatlara gedilməlidir. Neftin qiyməti ilə bağlı yaranmış vəziyyət, müharibə şəraitində yaşadığımızdan yaranan situasiya, bölgədəki mövcud vəziyyət onu deyir ki, biz təcili şəkildə iqtisadi sferada, eləcə də idarəetmə sistemində islahatlara getməliyik, paralelliyi aradan qaldırmalıyıq. Artıq Nazirlər Kabineti ilə bağlı qərar verməyin zamanı çatıb. Daim demişəm ki, idarəetmədə mərkəzləşmə ona görə vacibdir ki, paralellik olmasın, yəni Nazirlər Kabineti və Prezident Administrasiyası bir-birini tamamlamasın. Yerlərdə olan idarəetmədə də iş bölgüsü aparılmalıdır. İcra hakimiyyətləri ilə bələdiyyələr arasındakı paralellik aradan qaldırılmalıdır. Son parlament iclasında da bildirdim ki, bəzi məmurlar işlərinə məsuliyyətsiz, israfçı yanaşırlar, islahatlarla ayaqlaşa bilmirlər. Məncə, kadr islahatlarına çox ciddi şəkildə ehtiyac var. Bir daha deyirəm ki, bu məsələlərin bayrama aidiyyəti yoxdur, bu, dövrün tələbidir. Buna adekvat olaraq, müəyyən addımların atılması vacibdir".

**İqtisadçı deputat Vahid Əhmədov bu təyinatlarda səlahiyyətlər prezidentə məxsus olduğuna görə qərarları da onun verdiyini söylədi:** "Qərarların nə vaxt veriləcəyi cənab prezidentin səlahiyyətindədir. Amma əlbəttə, müəyyən gözləntilər var. Bunu mətbuatdan da oxuyuruq. Əsas məqsəd hazırlanan Strateji Yol Xəritəsinin həyata keçirilməsidir. Bununla 2018-19-cu illərdə Azərbaycanda ciddi inkişafa nail olmağa çalışmalıyıq. Bunu da həyata keçirmək üçün islahatlar aparmaq lazımdır. Yəqin ki, dövlət başçısı bu barədə öz qərarlarını verəcək".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev aprel ayından başlayaraq, vitse-prezidentlər institutunun formalaşması və digər proseslərin gedəcəyini qeyd etdi:** "İslahatların olacağını gözləyirəm. Burada təkcə söhbət vitse-prezidentlər institutunun formalaşmasından getmir. Digər sahələrdə də dəyişikliklər olmalıdır. Siyasi məhbusların bir çoxunun həbsdə qalmasını islahatlara mane olmaq kimi qələmə vermək düzgün deyil. Çünki islahatlar hələ başlamayıb".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017




# Kremlin "mart inqilabı planı" - Putin Medvedyevi qurban verir - iddia

## Rusiyada baş verənlərin arxasında baş naziri bitirmək məqsədi dayanır; Putin niyə dostundan canını qurtarmaq istəyir?

**Rusiya əyalətlərində martın 26-da başlayan aksiyalar paytaxt Moskvaya və Sankt-Peterburqa çatıb. Şimal qonşumuzdakı hadisələr şübhəsiz ki, Azərbaycanda da diqqətlə izlənir. İndi Azərbaycanda "Qərb Rusiyanı içəridən dağıtmağa qərar verdi" kimi versiyalar daha populyardı. 17 illik Putin hakimiyyətinin gözlənilmədən içəridən "çat verməsi", özünə gün ağlamayan Qərbin(?) Rusiyada inqilab hazırlaması, polisin əyalətlərdə müxalifət fəallarının qarşısından "qaçması" kimi versiyalar əlbəttə ki, reallıqdan uzaq görünür.**

Putin hakimiyyəti bəlkə də heç vaxt olmadığı qədər indi güclüdür. Doğrudur, son rəy sorğularında Kreml rəhbərinin ölkədaxili reytinqində müəyyən geriləmə nəzərə çarpırdı, amma bu, ölkəni silkələyəcək həddə deyildi. Son aylar əyalətlərdə və mərkəzi hakimiyyətdə ciddi kadr dəyişikliyi də Putinin mövqelərini xeyli möhkəmləndib. Generalitetdə də özünə sadiq adamları ön vəzifəyə çəkən Putin gələn il keçiriləcək seçkilərə hazırlıq içərisindədir. Amma onun prezidentlik yolunda əngəllərdən biri və bəlkə də birincisi indi Rusiyada baş verənlərin əsas antiqəhrəmanına çevrilmiş baş nazir Dmitri Medvedyevdir.

Rusiya prezidenti Vladimir Putin martın 14-də keçirdiyi Nazirlər Kabinetinin geniş iclasında Dmitri Medvedyevin iştirak etməməsini ölkədəki qrip epidemiyası ilə izah etmişdi. Bu toplantıdan sonra həqiqətən də baş nazir "gözdən itdi" və prezidentin Təhlükəsizlik Şurasının iclasında belə iştirak etmədi. Rusiya mediası və sosial şəbəkə dərhal bu xəbərlərə "Putin Medvedyevlə yollarını ayırır" rəngi verərək, baş nazirin gözdən itməsinin qriplə bağlı olduğuna şübhə ilə yanaşdılar. Medvedyevin qısa müddət sonra işə çıxması və "mən xəstə deyildim" söyləməsi bu məsələ ətrafında müəmmanı daha da artırdı.

Rosbalt.ru saytı yazır ki, Medvedyev bu sözləri ağır yüklü maşınların sürücüləri ilə görüşündə deyib. Belə ki, sürücülərdən biri baş naziri sağalmasına sevindiyini deyib, Medvedyev isə faktiki olaraq prezidenti təkzib edərək, xəstə olmadığını söyləyib. Yada salaq ki, ötən ilin avqust ayında da Medvedyevin istefaya göndəriləcəyi haqda informasiya yayılmışdı. Medvedyevin istefaya göndəriləcəyi və onun yerinə keçmiş maliyyə naziri, baş nazirin ən qatı əleyhdarı kimi tanınan Aleksey Kudrinin gətiriləcəyi haqda informasiyaları Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov təkzib edərək hökumətin tərkibində də heç bir dəyişiklik gözlənilmədiyini bəyan etmişdi.

Rosbalt yazır ki, Medvedyevin "siyasi qripi"nə səbəb prezidentin ona istefaya getməsi təklifindən sonra baş verib. Bildirilir ki, Putin hələ 2011-ci ildə baş nazirlə anlaşıb ki, 2018-ci ilə - yəni növbəti prezident seçkilərinə qədər baş naziri dəyişməyəcək. İkinci versiyaya görə isə Medvedyev Navalnının onu korrupsiya ilə ittiham edən filmindən sonra istefasını tələb edən "Kreml qırğılarından" inciyib və paytaxtı tərk edib. Bildirilir ki, Medvedyev yalnız Putinin israrından sonra bugünlərdə iş başına qayıdıb.

Rusiya mediası yazır ki, əgər Medvedyevin yaxın günlərdə istefaya göndərilməsi reallaşmasa, o halda əks proses başlaya bilər. Yəni Putin hökumətdə anti-Medvedyev qruplaşmasını dağıtmalı olacaq. Bildirilir ki, aprel ayında Putinin Medvedyevi seçəcəyi, yoxsa onunla vidalaşacağı məlum olacaq.

Amma Rusiyada martın 26-da baş verən hadisələr Medvedyevi bütün dünyada hədəfə çıxarıb. Məlumdur ki, martın 26-da müxalifət fəalı Aleksandr Navalnının təşəbbüsü ilə Rusiyanın bir neçə şəhərində korrupsiya əleyhinə keçirilən etiraz aksiyalarının əsas hədəfi də məhz baş nazir olub. Mitinqlərin keçirilməsinə səbəb Medvedyevlə bağlı çoxsaylı daşınmaz əmlak obyektlərinin mövcudluğunu iddia edən Navalnı Fondunun araşdırması olub. Navalnı Medvedyevin gəlirsiz təşkilatlar kimi kölgəli şəbəkələr vasitəsilə daşınmaz əmlak, yaxtalar və üzüm bağları kimi sərvətlərə malik olduğuna dair detallı hesabatından sonra ölkənin əksər bölgələrində aksiya çağırıb. Uzaq Şərqdən paytaxt Moskvayadək əks-səda verən bu mitinqlər 2011-2012-ci illərdə keçirilən mitinqlərdən sonra ən böyük və təşkilatlanmış aksiyalar hesab edilir.

Martın 27-də etiraz aksiyaları Moskva və Sankt-Peterburqda davam etdirilib. Paytaxtda müxalifətin təşkil etdiyi aksiyada 3 minədək insan iştirak edib. Maraqlıdır ki, aksiyalarda Putin əleyhinə plakatlar da gözə dəysə də, əsas hədəf baş nazir olub, o, az qala ölkədə baş verən bütün iqtisadi bəlaların səbəbkarı kimi göstərilib. Rusiyanın rəsmi KİV-ləri aksiyalarla bağlı xəbərləri gizlədib, amma məlum olub ki, güc strukturları paytaxtdan kənar keçirilən aksiyalara ciddi müdaxilə də etməyib ki, bu da diqqət çəkir. Çünki Putinin yerli canişinləri miqyasından asılı olmayaraq bu cür etiraz aksiyaların qarşısını dərhal almağa üstünlük verir. Martın 26-da isə Medvedyev əleyhinə aksiyalarda güc strukturları humanist davranıblar ki, bu da yenə diqqətləri baş nazirin istefasına yönəldib.

Daha bir maraqlı məqam isə Medvedyevin martın 26-da başlanılan aksiyalar zamanı harada olması ilə bağlı xəbərlərin rus mediasında geniş tirajlanmasıdır. Məlum olub ki, Rusiyanın baş naziri korrupsiya ilə mübarizə şüarı altında mitinqlər keçirilən zaman... xizək sürürmüş.

Müxalifət lideri Navalnının həbsinə baxmayaraq, aksiyaların Rusiyanın iri şəhərlərinə çatması artıq Kremlin müdaxiləsini zəruri edir. Martın 27-də polis öz gücünü göstərib, yüzlərlə müxalifət fəalı həbs olunub.

Medvedyevin rəhbərlik etdiyi hökumət ağır iqtisadi sanksiyalara baxmayaraq, ötən ilin sonu və bu ilin ilk üç ayında maliyyə bazarında stabilləşməyə nail olub. Rublun kursunun möhkəmlənməsi və ÜDM həcminin cüzi də olsa artması hökumətdən narazılıqları azaldıb. Yəni faktiki olaraq hökumət nə bacarıbsa onu edib. Amma indi əsas hədəf son nəticədə Putin rejimi olsa da, Kremllə narazı kütlənin arasında baş nazir amili qoyulub. Bu, Putinə imkan verir ki, "xalqın basqısı altında" baş naziri istefaya göndərsin və ya onu daha uyğun bildiyi zamanda hökumət rəhbərliyində ayrılmasına razı salsın.

❑ "YM"

# Orda yaşıl işıq gördüm



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Gündəm bu qədər qarışmasa, araya 9 günlük bayram tətili girməsə, mən bu yazını çoxdan yazacaqdım. Amerika müsahibələrim və reportajlarım bitən kimi, təbii. Çünki jurnalistikanın qayda-qanunlarına görə, reportaj və müsahibələrində jurnalist mövqeyini bildirə bilmirsən. Təsvir, suallar, uzaqbaşı təəssüratlar. Amma o cür fərqliliklər diyarının 4 şəhərini dolaşandan sonra turist, jurnalist... kimi baxışlarını yazmadan olmaz...**

Bir ölkə düşünün... Hansı şəhərinə getsən, təcrübə üçün mərkəzində dayansan, bir dəqiqə ərzində yanından 50-yə yaxın millətin nümayəndəsi keçir. Səni təyyarədən gözübağlı şəkildə şəhərin mərkəzinə qoysalar, ətrafındakı insanların danışıqlarından harada olduğunu müəyyənləşdirə bilməzsən. Nyu Yorkun Tayms meydanında daha çox bu hissə qapılırsan - mən eyni vaxtda yanımda ingilis, rus, türk, çin... dilində danışan nə qədər adam gördüm. Turistik şəhərdir, doğru. Amma ətrafımdakıların heç də hamısı turist deyildi. Fürsətlər ölkəsi, macəralar diyarı hamıya eyni şərtləri təqdim edir. Avropadan fərqli olaraq, burda sənə yabançı olduğunu hiss etdirmirlər, sən özünü "başqasının boşqabındakı" kimi görmürsən. Əlində heç bir peşən, sənətin olmasa belə, bir neçə saatın içində burada özünə iş tapa bilərsən. Ölüsü qabyuyan. Saatı 10-15 dollardan başlayan sıradan işlər. Hansından ki, Amerikada yaşamağa başlayan hər kəs keçib. Hətta varlı ailələr belə zaman-zaman övladlarını pul qazanmaq, əməyə öyrətmək üçün bu cür işlərə yönləndirirlər.

Kim deyir ki, amerikanlar və ya Amerikada yaşayanlar soyuq xarakterli, insana yardım etməyi sevməyənlərdir? 10 günlük səfərim boyu dəfələrlə ciddi yardıma ehtiyacım oldu. Bir neçə dəfə gəzintiyə çıxıb, yolu itirdim, məsələn. Kimə yaxınlaşdımsa, yardım etdi, yol göstərdi. Hətta birində Tayms meydanından hotelə gedən yolu itirmişdim, bir qadın əlimdəki hotel kartını alıb, yoldakı hər kəsdən soruşaraq, məni hotelə qədər ötürdü. Xeyli də məsafə idi, yolunun üstü deyildi, məni mənzil başına çatdırandan sonra o qədər məsafəni geri qayıdacaqdı. Daha birində isə təyyarədə yemək almalı olsam da, üstümdə ancaq nağd pulum vardı. Təyyarədə ödəmə isə kartla idi. Ac idim, yemək almalı idim, nağd pulumu geri qaytardılar. Yanımdakı cavan qız kartını uzatdı, yeməyimi aldı. Nağd pulu ona ödəyəndə "pulunuz azdırsa, qalsın" dedi... İnsan həyatı boyu gördüyü bir çox simaları unuda bilir, amma o amerikan qadınla qızın simasını çətin ki, yaddan çıxararam.

Getmədən öncə bir çox dostlar xəbərdarlıq etmişdi ki, Amerikanı görmək dünyanın yeni üzünü görmək kimidir. Sən sanki yeni bir mərhələyə qədəm qoyursan, amerikanların təbirincə desək, level (mərhələ) adlayırsan. Fərqli dünya görürsən sanki. Dinamizmi, energetikası, şarmı, ədası... ilə yeni ölkə. Üstəlik, fürsətlərlə dolu bir dünya.

Və ən önəmlisi. Bu günə qədər Avropada yaşayan mühacirlərlə bağlı əldə etdiyim təəssüratlardan fərqli təəssürat. Amerikalı azərbaycanlıların gözündə görməyə alışdığım klassik qürbətçi kədəri zəif idi. Daha bir əmin, daha bir qətiyyətli, daha bir... Cəmiyyət onları özününkü kimi qəbul etdiyi üçün onların da ayaqda dayanma imkanları güclənmişdi sanki. Hətta öz ölkəsində yüksək statusda olub, orada sıfırdan başlamağa məcbur olanların içində belə bir ciddi əminlik vardı - belə olmalıdır, hamı bu yoldan keçir, mən də keçəcəm. Üstəlik, bunu aşağılayıcı bir status, nəsnə kimi də qəbul etmirlər. Çünki bu cəmiyyət daha öncə onlar kimi milyonlarla insana məhz bu cür qapı açıb, yol göstərib. Prinsip budur - millətimin dilini öyrən, qaydalarıma uyğunlaş, burada istədiyin qədər yaşa.

Bəli, Amerika Avropa ölkələri kimi miqranta müavinət, sosial güzəştlər vermir. Bəli, gələni düşərgələrə yerləşdirib, sonra ciddi, iki-üç mərhələli, istintaqı xatırladan sorğu-sual mərhələsindən keçirmir. Sadəcə, qabiliyyət və imkanlarına görə şərtlərini təqdim edir. Özləri də bu şüarı əldə bayraq edirlər: Amerika müftəxorların ölkəsi deyil! Yəni onlar minilliklər boyu qurub, qoruduqları demokratik dəyərlər sisteminə kimisə sırf rahat yaşamaq istəyinə görə yamaq etmək istəmirlər. Ona görə də Amerika bir çox hallarda Suriyadan, ərəb ölkələrindən gələnlərin tərcihinə çevrilmir. Etiraf edək, heç azərbaycanlılar da Amerikanı mühacirət üçün favorit ölkələr siyahısına daxil etmirlər. Bəli, Tramp Amerikası gözəl olsa da, gələnlərə rahat və qayğısız həyatdan daha çox, bir tramplində yüksəlmə üçün sadəcə şans verir. İkinci həyat, hər şeyi sıfırdan başlama imkanı və... yaşıl işıqlar...

Mən Amerikada daha çox yaşıl işıq gördüm. Gələnlərə və gəlmək istəyənlərə. Amerika dəyərləri dedikləri də bu olsa gərək...



# Təkcə yol qaydaları pozulurmu bu ölkədə?..

Hüseynbala SƏLİMOV

**Bəli, bayram günlərinin yeknəsəqliyindən lap əməlli-başlı üzüldük. Əslində başqa günlərdə də bir şey olmur. Bayram günlərində isə ictimai həyat lap donur.**

Başqa vaxtlarda heç olmasa, rəsmi xəbərlərlə və bir də bizim telejurnalistlərin yol hərəkəti qaydalarının pozulması halları ilə bağlı hazırladıqları süjetlərlə başımızı qatırıq...

Sonuncunu xüsusi qeyd etməyə dəyər, çünki adamda hətta belə təsəvvür yaranır ki, bu ölkədə yalnız və yalnız yol hərəkəti qaydaları pozulur.

Yox, demirəm ki, yol hərəkəti qaydaları tamam əhəmiyyətsiz bir məsələdir. Hətta yol polislərinə minnətdarıq ki, heç olmasa, onlar bizim jurnalistlərin sorğularını cavablandırırlar. Buna görə sağ olsunlar və bir də Allahdan diləyimiz budur ki, bu səmimiyyətlərinə görə onların başqa günahlarından keçsin...

Amma pozulan təkcə yol hərəkəti qaydaları deyil. Çox şeylər pozulur, çox şey tapdanır və çox şey qulaqardına vurulur bu ölkədə... Amma biz bütün bunlar haqda susmağa üstünlük veririk. Bizim məntiqlə də edirik və başımızı cəncələ qatmırıq...

Fəqət, problemlərdən qaçdıqca onlar sanki bir hörümçək toru kimi ayaqlarımıza dolaşmağa başlayırlar. Problemlərdən qaçmaqla onların sayını azaltmırıq, onları kiçiltmirik. Sadəcə, bizə elə gəlir ki, belə daha yaxşıdır, guya ki, bu yolla özümüzü daha ağır fəsadlardan hifz edirik...

Qoy, belə olsun. Nə deyirəm ki? Sizə xoşdursa, bizə lap on qat artıq xoşdur. Gəlin, beləcə məmurlarımızın pulu burada qazanıb iş yerlərini başqa ölkələrdə açmasını sakitcə seyr edək. “Bu ölkədə niyə bu qədər bahalıqdır?” kimi suallarla başımızı ağrıtmayaq...

Hətta Orta Asiya ölkələri ilə müqayisədə belə geridə qaldığımız halda özümüzü dünyanın ən xoşbəxt cəmiyyəti hesab edək. Gecə-gündüz yalan eşidək, yalan danışaq, çünki bu bizə daha yaxşıdır. Doğru danışan adamlar bu günə qədər nəyə nail olublar ki, durub doğru-dürüst olaq?..

Demirəm ki, digər ölkələrdə insanlar yalan danışmır, günah işlətmir. Yox, oralarda da hərdən olur. Amma oralarda insanlar buna görə heç olmasa, gecələr Allaha dua edirlər ki, bəs günahlarımızdan keç...

Bizimsə çoxumuz hətta bunu da etmirik, çünki gecələr daha vacib işlərimiz var-gündüz oğurladıqlarımızı gecələr saymaqla məşğul oluruq!

Qərəz, çox qəliz bir cəmiyyətik. Bəzən mənə elə gəlir ki, çox məsələləri min illər keçməsinə rəğmən hələ də yetərincə başa düşmürük. Məsələn, insan niyə ibadət edir? Din nədən ötrü lazımdır?..

Mənim anladığım budur ki, Allah əvvəl cansız təbiətin qanunlarını yaratdı - beləcə, atomlardan tutmuş ulduzlara qədər kiçik və böyük cisimlər yarandı. Daha sonra İlahi canlı təbiətin qanunlarını yaratdı və beləcə, hüceyrələr və irili-xırdalı canlılar meydana çıxdı. Sonradan belə məlum oldu ki, digər canlılardan fərqlənən insanın daha bir qanuna da ehtiyacı var. Bu, əxlaq qanunu idi ki, Tanrı onu din formasında göndərdi.

Bəlkə də səhv yozuram, amma mənə həmişə belə gəlib ki, din məhz əxlaq qanunudur. F.M.Dostoyevski nahaq yerə daim soruşmurdu: “Əgər Allah yoxdursa, onda hər şey icazəli deyilmi?!.”...

Hər şey icazəli olanda isə əxlaq olmur, xeyir-şər olmur, günah-savab olmur, tamamilə xaos olur və bizim də digər canlılardan fərqimiz olmur, halbuki Allah həmin canlılar üçün də müəyyən davranış çevrəsi cızıb.

Ona görə də həmişə deyirəm ki, neft bir gün qiymətdən düşdüyü kimi qiymətə də minə bilər. Vay o günə ki, əxlaq qiymətdən düşə və əxlaq qanunu pozula! Belə ölkələrin hakimiyyətləri və cəmiyyətləri nə qədər istəsələr belə vəziyyəti düzəldə bilməzlər. Ona görə ki, təməl prinsiplər pozulub.

Əxlaqın bir xüsusiyyəti də ölçü və meyar olmaqdır. Bir daha deyirik ki, əxlaq yoxdursa, deməli meyar və ölçü də yoxdur...

Nə isə... Bilirəm, deyəcəksiniz ki, bütün bunlar yəqin bayramın fəsadlarıdır - görünür, bu adamın şəkərburası az olubdur. Amma belə deyil. Sadəcə, bu ölkənin sükutu, bu mənəvi cəhətdən tənbəl cəmiyyətin lal sükutu üzür məni.

Hətta bunu da bir günahsızlıq kimi yozuruq - nə qədər insan kənara çəkilməklə, susmaqla “təmiz” qaldığını zənn edir. Fəqət, bir şeyi də bilmək lazımdır ki, sükutumuz da bəzən razılığımız kimi yozulur. Bəli, nə qədər qəribə olsa da...

# Rusiyada başlayan siyasi hərəkətlənmə ətraf ölkələrə keçə bilərmi...

**Moskva daxil olmaqla, Rusiyanın bir çox şəhərlərində eyni vaxtda keçirilən antikorrupsiya mitinqləri polis tərəfindən dağıdılıb. Rusiya KİV-nin xəbərinə görə, 82 şəhərdə keçirilən aksiyalar zamanı 1500-dən artıq insan saxlanılıb. Korrupsiya Əleyhinə Fondun təşkil etdiyi aksiyaların ən izdihamlısı Moskvada və Sankt-Peterburqda baş tutub.**

Moskvanın Puşkin meydanında və Tveskaya küçəsində baş tutan mitinqlərdə 30 min insanın iştirak etdiyi bildirilir. Saxlanılanlar arasında aksiyanın təşkilatçısı Aleksey Navalnı da var. Onun gecəni Moskvadakı polis şöbələrindən birində keçirəcəyi bildirilir. Bundan başqa, Korrupsiya Əleyhinə Fondun bütün üzvləri də həbs olunanlar arasındadır. Ümumilikdə, Moskvada 860-dan çox insan saxlanılıb. Sankt-Peterburqdakı aksiyaya isə 10 mindən artıq insanın qoşulduğu, onlardan 130 nəfərin həbs olunduğu xəbər verilir. Paralel olaraq, Yekaterinburq, Novosibirsk, Çelyabinsk, Perm və s. şəhərlərdə aksiyalar baş tutub. Mahaçqaladakı aksiyada 150, Krasnodarda 100 və Vladivostokda isə 80 nəfərin saxlanıldığı bildirilir. Aksiyalar baş nazir Dmitri Medvedyevin qanunsuz mülkləri ilə bağlı rezonanslı araşdırmanın ardınca təşkil olunmuşdu.

Rusiyadakı hadisələr son bir neçə gündə dünyanın diqqət mərkəzindədir.

Avropa İttifaqı Rusiyanı bazar günü ölkə miqyasında keçirilmiş etiraz aksiyaları zamanı saxlanılan bütün şəxsləri azad etməyə çağırıb. Aİ Rusiyanı üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməyə səsləyib. Bəyanatda bildirilir ki, Rusiya polisi aksiya zamanı Rusiya Federasiyası Konstitusiyasında təsbit olunmuş əsas hüquqların icrasına maneçilik törədib.

**Müstəqil siyasi ekspert Şahin Cəfərli bildirib ki, Aleksey Navalnının sosial media vasitəsilə Sibir və Uzaq Şərq də daxil olmaqla, ölkə miqyasında təşkil etdiyi etiraz aksiyaları göstərir ki, Rusiyada protest potensialı var. Eyni zamanda məlum olur ki, Rusiyada müəyyən passionar təbəqə də mövcuddur və onlar ölkənin uçuruma sürükləndiyini görərək etiraz etməyə çalışırlar:** “Putinin bir müddət əvvəl Milli Qvardiya yaradaraq şəxsən özünə tabe etdirməsinin səbəbləri indi daha yaxşı anlaşılır. Düzdür, etirazlar hələ ki kritik və rejimi təhdid edəcək həddə deyil, amma iqtisadi böhran dərinləşdikcə, etirazlar da buna paralel artacaq. İqtisadi gücü olmayan, texnoloji inkişafda ciddi şəkildə geri qalan Putin Rusiyasının bu gün qlobal liderliyə iddia etməsi absurd və gülüncdür. Sırf hərbi gücün və kəşfiyyatın vasitəsilə uzun müddət ayaqda qalmaq mümkün deyil”.

**Bəs Rusiyada baş verən hərəkələnmənin digər MDB dövlətlərinə, o cümlədən Azərbaycana da hansısa şəkildə təsiri ola bilərmi? Hakimiyyətin önləyici tədbirlər görməsinə ehtiyac varmı?**



**Bəxtiyar Sadıqov: “Rusiyada olan problemlərin bizə dəxli yoxdur”**



**Sərdar Cəlaloğlu: “Orada müşahidə edilən çaxnaşmalar ilkin qığılcımlardır, böyüdükcə ətrafa da keçəcək”**

**Hakim Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, deputat Bəxtiyar Sadıqov bildirdi ki, Rusiyadakı etirazçıların sayının çox az olduğu müşahidə edilir:** “Yeni Rusiya kimi 170 milyonluq əhalisi olan nəhəng dövlətdə çox az sayda müxalifətçinin meydanda olması o deməkdir ki, etirazlar ümumi əhval-ruhiyyənin göstəricisi deyil. Ona görə də hesab edirəm ki, Rusiyadakı etirazlar genişlənməyəcək. O biri tərəfdən isə Rusiyada müxalifətin kütləvi aksiyalarının Azərbaycana təsirinin olacağı da mümkün deyil. Biz vaxtilə SSRİ tərkibində olmuşuq və bir mərkəzdən idarəçilik olub. Ona görə də bizim bütün problemlər eyni idi. İndi isə Azərbaycan müstəqil dövlətdir, özünün müstəqil siyasəti var. Bu gün qlobal iqtisadi böhranın yaratdığı çətinliklər Rusiya və Azərbaycanda eyni deyil. Biz bu çətinlikləri görürük, anlayırıq. Azərbaycan iqtidarı da o çətinliklərin təsirini zəiflətmək üçün zəruri olan bütün addımları atır, xalq da bunu görür, dəstəkləyir. Ona görə də Rusiyada olan problemlərin bizə dəxli yoxdur. Bizdəki çətinliklər müvəqqətidir. Azərbaycan iqtidarı ilə Rusiya iqtidarı arasında əməkdaşlıq olsa da biz ayrı-ayrı dövlətlərik və problemlərimiz eyni problemlər deyil. Azərbaycan müxalifəti ilə Rusiya müxalifəti arasında da heç bir əlaqə yoxdur. Narahat olmağa əsas yoxdur. Azərbaycan iqtidarı problemləri aradan qaldırmaq üçün zəruri addımlar atır”.

**ADP sədri Sərdar Cəlaloğlu isə hesab edir ki, Rusiyada başlanan xalq etirazlarının Azərbaycana və digər postsovet respublikalarına təsiri olacaq:** “Bu, məntiqi və tarixi qanunauyğunluqdur. Son yüz ildə Rusiyada nə zaman siyasi hərəkətlənmələr, inqilablar baş veribsə, onun Azərbaycan və digər keçmiş SSRİ respublikalarına təsiri olub. Rusiya ilə burada siyasi nəbz demək olar ki, eynidir. Keçmiş SSRİ məkanında totalitar cəmiyyətlərin formalaşmasında tənəzzül dövrü özünün zirvəsinə çatıb. İndi həmin nöqtədən tərəqqiyə doğru proses başlayacaq. Təbii ki, bu proses yenə də Rusiyadan başlamalıdır. Postsovet respublikalarında rejimlərin mövcud olması Rusiyadakı siyasətin kopyasıdır. Rusiyada 170 milyona yaxın insan bir qrup adam tərəfindən istismar olunur, zəngin bir ölkədə insanlar dilənçi səviyyəsində yaşayır, amma çox çətin ayağa qalxırlar və üsyan edirlər. Lakin ayağa qalxanda qarşısında heç kim dayana bilmir. Yəni ruslar həmişə islahatlar yolu ilə yox, üsyanlarla dəyişiklik edirlər. Böyük oktyabr sosialist inqilabının Rusiyada baş verməsi, SSRİ-nin dağılması ilə bağlı baş verən hadisələr də göstərir ki, Rusiya siyasi məkanında islahatlarla dəyişiklik mümkün deyil, burada hadisələr yalnız inqilablar yolu gedir. İndi də Rusiyada müşahidə edilən çaxnaşmalar ilkin qığılcımlardır. Getdikcə Rusiya böyük inqilaba doğru irəliləyir. Rusiya hakimiyyətinin silahlanmaya, öz sərhədlərindən kənara müdaxilə eləməsi SSRİ dağılarkən SSRİ hakimiyyətinin davranışlarının kopyasıdır. SSRİ Əfqanıstana girəndən 10 il sonra dağıldı. İndi də neçə ildir Rusiya Suriyaya girib, ölkənin iqtisadi resursları silahlanmaya yönəldilib.

Son günlərdə müşahidə olunan etiraz aksiyaları genişlənəndə qısa müddətdə Rusiyada mərkəzdənqaçma meyllərinin baş qaldırması ilə müşayiət olunacaq. Hakimiyyətin də bunun qarşısını almağa gücü çatmayacaq. Diktatorlar o vaxta qədər xalqı idarə eləyə bilirlər ki, xalq susur. Tarix göstərir ki, xalq ayağa qalxanda heç bir diktator xalqı idarə edə bilmir".

**ADP sədri vurğuladı ki, Rusiyada dəyişikliklər, siyasi hərəkətlənmə sürətlənəcəyi halda keçmiş SSRİ respublikalarında, həmçinin Azərbaycanda da buna uyğun siyasi fəallaşma baş verəcək. Rusiyada inqilab baş verəndə isə həmin gün bütün postsovet respublikalarında xalqlar ayağa qalxacaq:** “Postsovet respublikalarında rejimlərin arxasında Kreml dayanır. Odur ki, Rusiyada rejim dəyişən kimi avtomatik olaraq bütün ətraf respublikalara təsiri olacaq”.

**Azərbaycan müxalifətinin belə bir dövrə hazırlaşmasına və Rusiyadakı hadisələrdən ilhamlanıb hərəkətlənməsinə gəlincə, S.Cəlaloğlu dedi ki, xüsusi hazırlığa və hərəkətlənməyə ehtiyac yoxdur:** “Müxalifət olaraq biz dəyişikliklər üçün varıq. Resurslarımız ki, var məhduddur, hakimiyyət də özünü həddən artıq güclü hesab edir. Ancaq Rusiyada hakimiyyət dəyişəndə biz elə indiki hazırlıq səviyyəmizlə də Azərbaycanda siyasi dəyişilmələrə nail olacağıq”.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017

**Qərb mediası “Azərbaycan Dəmir Yolları” QSC-nin adı qarışan korrupsiya cinayətini araşdırmaqda davam edir. İsveçin nəhəng nəqliyyat infrastrukturu şirkəti “Bombardier Transportation” Azərbaycanda dövlətin balansında olan dəmir yolu şirkətində siqnal sisteminin quraşdırılması layihəsində 56.8 milyon dollar paya sahib olub. “OCCRP”nin (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi) reportyorları bu şirkətlə bağlı araşdırmaları çərçivəsində böyük bir korrupsiya sxemini üzə çıxarıblar.**



# Azərbaycanlı çoban şirkət sahibi olub, milyonçuya çevrilib - sensasion gəlişmə

## Qərbli jurnalistlər “Azərbaycan Dəmir Yolları” QSC-nin adı qarışan 56 milyonluq korrupsiyanın yeni təfərrüatlarını üzə çıxarıblar

“OCCRP” reportyorlarının Azərbaycanda gerçəkləşdirdikləri araşdırmalar zamanı bəlli olub ki, 56.8 milyon dollarlıq paya sahib olan şirkətin sahibi ölkəmizin İranla sərhədyanı kəndində yaşayan sadə bir kəndçidir. Həyətində toyuq-cücəsi də kəm deyil. 44 yaşlı elektrik Elxan Əliyev Bakıdan 250 kilometr uzaqlıqda, İranla sərhəddə kənddə sadə fermer həyatı yaşayır. Bu şəxs kağız üzərində Kanada, İsveç, Rusiyanın tanınmış şirkətləri, eləcə də Azərbaycan hökuməti ilə güclü siyasi əlaqələri olan “Trans-Siqnal-Rabitə” MMC-nin sahibidir.

2013-cü ilin əvvəllərində heç bir yerdə adı olmayan “Trans-Siqnal-Rabitə” MMC “Azərbaycan Dəmir Yolları” QSC ilə 340 milyon dollarlıq müqaviləni udmaq üçün İsveçin nəqliyyat infrastrukturu nəhəngi “Bombardier Transportation AB” və onun Rusiyadakı törəmə şirkəti ilə konsorsium yaradıb. Bu irimiqyaslı layihədə Asiya ilə Avropanı birləşdirən beynəlxalq nəqliyyat dəhlizinin Bakı-Böyük Kəsik dəmir yolu xətti hissəsində 503 km boyunca siqnal sistemi quraşdırılması nəzərdə tutulurdu.

“Düzünü desəm, mən bu şirkətin sadəcə təsisçisiyəm. Mənim bu şirkəti idarə edənlərlə bir əlaqəm yoxdur. Bu haqda danışa bilmərəm. Mən heç nə bilmirəm” - Elxan Əliyev reportyorlara belə deyib

Onun yaşadığı evi jurnalistlər belə təsvir edirlər - suyu giriş qapısının çölündəki qaz sobasının üzərində qaynadılan, toyuqların qaqqıldadığı və həyətinin arxasında inəklərin ot yediyi - sadə kəndli evinə baxanda bu rəqəmlərə inanmaq çox çətindir.

Reportyorlar Əliyevin evinə baş çəkəndə anası qapını açıb və üzr istəyərək deyib ki, oğlu kənddəki tibb məntəqəsində işdədir. Elxan Əliyev bu şirkətin çoxmilyonluq dollar sövdələşmələri həyata keçirməyindən xəbərsizdir.

Sövdələşməyə əsasən, “Trans-Siqnal-Rabitə”nin payı 44 mln AZN (o zamankı məzənnə ilə 56.8 mln dollar) idi. Görüləcək işlərə qatarların yolboyu monitorinqinin aparılmasına şərait yaradan və nəqliyyat nəzarət mərkəzi ilə əlaqəni təmin edəcək fiber-optik kabellərin, siqnal ləvazimatlarının quraşdırılması daxil idi. “Trans-Siqnal-Rabitə” MMC-nin arxasında duran və gəlir əldə edərək varlanan real güc isə gizli saxlanılır. Amma “OCCRP” şirkət haqqında məlumatları nəzərdən keçirəndə məlum olub ki, şirkət “Azərbaycan Dəmir Yolları” QSC-dəki şəxslərlə sıx bağlıdır. Faktiki olaraq 340 mln. dollarlıq tenderdə 56.8 mln. dollarlıq pay “otkat” kimi həmin güclü şəxslərə ötürülüb.

**Hüquqşünas və iqtisadçı ekspert Əkrəm Həsənov “Yeni Müsavat”a deyib ki, üzə çıxarılan çoxmilyonluq dollar mənimsənilməsi adi korrupsiya cinayətidir və Azərbaycanın hüquq-mühafizə orqanları məsələni araşdırmalıdır:** “Burada Elxan Əliyev sadəcə, qurbandır. Onun adından istifadə ediblər. Düşünməyiblər ki, jurnalistlər gedib onu tapar, böyük bir maxinasiyanın, korrupsiyanın üstünü aça bilərlər. Əlbəttə ki, onu da hüquq-mühafizə orqanları çağırıb sorğulamalı, həmin şirkəti kimin təşəbbüsü ilə adına yaratdığını öyrənməlidirlər. Bu yolla bütün korrupsiya sxeminin arxasında dayanan, həmin sxemi çəkən, idarə edəni müəyyən edə bilərlər. Bu halda bilinər ki, 56.8 milyon dollar kimin cibinə axıb. Azərbaycanda belə məsələləri araşdırmaq elə də çətin deyil. Hamı bilir ki, hansı şirkətin arxasında kim dayanır. Lazım olanda kölgədə qalanı üzə çıxarmaqda çətinlik çəkmirlər. Burada söhbət çoxmilyonluq korrupsiyadan gedir və bununla Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi məşğul olmalıdır. Çağırıb Elxan Əliyevi dindirməlidirlər. Vaxtilə Zülfüqarlı qardaşlarının əmlakları əllərindən alınıb, Lerikin dağ kəndindən olan bir çobanın adına rəsmiləşdirilmişdi. O dövrdə yerli media bu məsələnin üstünü açdı, bilindi ki, çoban bisavaddır və adına böyük zavodların olmasından xəbərsizdir. Ona, sadəcə, ayda 200-300 manat maaş veriblər. Yəni Azərbaycanda belə hallar əvvəllər də olub”.

**Ə.Həsənov deyir ki, Azərbaycanda gələcəkdə belə halların təkrar olunmaması üçün maliyyə amnistiyasının verilməsi vacibdir:** “Deyilmədir ki, bu günə qədər oğurlanan pullara amnistiya verilir. Bundan sonra büdcədən pul oğurlayanlar isə çox ciddi şəkildə cəzalandırılacaq, əmlakları müsadirə ediləcək. Belə olmasa ölkədə korrupsiya cinayətlərinin qarşısını almaq çətin olacaq. Hər yeni yaradılan nəzarət qurumu əlavə korrupsiya cinayətinə yol açır, korrupsiyanın miqyasını daha da böyüdür. Korrupsioner bir yoxlayıcını yola salmaq üçün 5 manat xərcləyirsə, hər ikisinə nəzarət edənə - həm yoxlayıcıya, həm də yoxlanan quruma - 5 yox, 15 manat verməli olur. Nəticədə büdcədən 10 manat deyil, 30 manat oğurlanır. Bu gün Azərbaycanda olan böyük bizneslərin sahiblərinin əksəriyyəti ilkin kapitallarını düz yolla qazanmayıblar. Ümumiyyətlə isə bütün dünyada ilkin kapital həmişə şəffaf olmayıb. Çıxış yolu kimi Maliyyə Amnistiyası verilib. Azərbaycanda da gec-tez belə bir amnistiya verilməlidir ki, əllərində böyük maliyyə cəmləşdirən məmurlar kölgədən çıxsınlar, lerikli çobanın, İranla sərhədyanı kənddə yaşayan fermerin adına şirkət rəsmiləşdirməsinlər. Tenderə öz adları ilə qatılıb dövlətə xeyir versinlər. Əks təqdirdə, belə halların davamı gələcək. Bu dəfə "Azərbaycan Dəmir Yolları" QSC-nin adı hallanırsa, gələn dəfə başqa bir dövlət qurumu oxşar korrupsiya cinayətində əsas fiqurant olacaq".



**Əkrəm Həsənov:** “Bu yolla bütün korrupsiya sxeminin arxasında dayananı, həmin sxemi çəkəni, idarə edəni müəyyən edə bilərlər”

**Ekspert deyir ki, ümumilikdə Azərbaycanda dövlət büdcəsindən ayrılan vəsaitlərə nəzarət mexanizmi şəffaf deyil. Büdcə pullarına ictimai nəzarət sıfırdır:** “Büdcə vəsaitinə nəzarət etmək üçün yaradılan qurumlar nəzarəti həyata keçirə bilmirlər və ya bunu etmək istəmirlər. Belə qurumaların əvəzinə bir sayt yaradılsın və həmin sayta büdcədən ayrılan vəsaitlərin necə xərclənməsi haqda məlumatlar yerləşdirilsin. Məsələn, "X" rayonundakı icra hakimiyyəti büdcə vəsaiti hesabına alınan malları haradan, neçə alması haqda ayda 1-2 dəfə məlumat yerləşdirsin. Bu gün büdcədən maliyyələşən elə təşkilatlar var ki, adi 30-40 qəpiklik qələmi 3-4 manata rəsmiləşdirirlər. Yəni qiymətlər elə şişirdilir ki, buna heç bir dövlətin büdcəsi davam gətirməz. Bu baxımdan, “Azərbaycan Dəmir Yolları” QSC-də baş verən böyük korrupsiya cinayəti də adi haldır. Nə qədər büdcə vəsaitlərinin xərclənməsi örtülü bazar olacaqsa, belə hallar da var olacaq".

Qeyd edək ki, “Azərbaycan Dəmir Yolları” QSC Dünya Bankından irimiqyaslı dəmiryol infrastruktur layihələri üçün 2 milyard dollar - 670 milyon dollar həcmində iki dəfə kredit də daxil olmaqla - kredit götürüb. Azərbaycan hökuməti və dövlət neft şirkətin olan SOCAR-dan bu yöndə yüz milyonlarla dollar ayrılıb. Azərbaycan Türkiyəyədək uzanan Bakı-Tiflis-Qars dəmir yolunun Gürcüstana düşən hissəsini maliyyələşdirdiyindən investisiyalar Gürcüstana da yönləndirilib.

“Bombardier”in təqdim etdiyi tender düzəlişlərində “Trans-Siqnal-Rabitə”güclü biznes şirkəti kimi təsvir olunur. Həmin sənədlərdə şirkətin Bakıda ofisinin, yüksək ixtisaslı işçi heyətinin, Azərbaycan və qonşu Gürcüstanda siqnal quraşdırmaq sahəsində təcrübəsinin olduğu deyilir.

“OCCRP”nin reportyorları tenderlərlə bağlı məlumat bazasında “Trans-Siqnal-Rabitə” MMC-nin adına rast gəlməyib, nə də şirkətin tarixi haqqında, nə də şirkətin rəsmi internet səhifəsi daxil olmaqla, biznes fəaliyyəti haqqında məlumat tapılıb.

Amma 2016-cı il noyabrın 11-də Prezident Administrasiyasının rəsmi orqanı olan “Xalq qəzeti” elan dərc edib: “Trans-Siqnal-Rabitə” MMC-nin 2007-ci ildən 2013-cü il daxil olmaqla, bütün mühasibat sənədləri itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir".

“OCCRP”nin reportyorları ofisi tapmaq və icraçı şəxslərlə görüşmək ümidi ilə Azərbaycanda “Trans-Siqnal-Rabitə”nin rəsmi qeydiyyatda olduğu Qaradağ rayonunda - Bakının Lökbatan qəsəbəsinin 28 May küçəsində olublar. Onlar həmin ünvanda köhnə, yamaqlı, peyk antenlərinin quraşdırıldığı və paltar qurutmaq üçün çoxlu iplərin bağlandığı binaya rast gəliblər. Orda 56.8 milyon manatlıq bir sövdələşməni udan şirkətin ofisindən əsər-əlamət olmayıb.

Göründüyü kimi, Qərb mediası bu korrupsiya işinin izini buraxmır. Bu araşdırmalar “Azərbaycan Dəmir Yolları” QSC-yə qədər uzanır və hələ ki izlər orada itir. Böyük korrupsiya cinayəti isə ortalıqdadır və araşdırılmalıdır.

Xatırladaq ki, 56 milyonluq korrupsiya faktı Arif Əsgərov “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri olduğu dövrlərdə baş verib.

❑ E.MƏMMƏDƏLİYEV



# Bibi oğlunun özəlləşdirilməsi

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycan futbol yığmasının Avropa çempionatının seçmə mərhələsində (bu mərhələni təxminən yazdım - o qədər müddətdir futbola baxmıram ki, indi mənim üçün bu turnirlər "Avropa oyunları"nın Böyük Şordakı açılış törəni fason bir zada çevrilibdir) Almaniya komandasına uduzduğu oyunun fotolarına təsadüfən internetdə baxdım, orda bir tanış üz gördüm. Bu, bibisi uşaqlarının jurnalisti qətlə yetirdiyi əsəbi qaqaşın fotosu idi, oynayırmış. Əlbəttə, onu yaxşı eləyib azadlığa buraxdılar. Çünki idman sağlamlıq deməkdir. Bunlar yeyib doyublar.**

Düzü, sonuncu cümlə axır vaxtlar yeri gəldi-gəlmədi, yazılarımın hər yerinə dürtülməyə fürsət gəzir. Heç bilmirəm bu cümlə ilə nə edim. Azərbaycan Milli Elmlər Akademiyasına ərizə yazacağam, bu cümləni dilimizdən çıxartsınlar. Zəhmətkeşlərə xidmət etmək lazımdır, həmin cümlə isə məni tamam gözü qıpıq edibdir. Bunun əlindən yaşaya bilmirəm, az qalıram gedim bulvarda özümü baobab ağacından asım. Səhər durub əl-üzümü yumağa gedirəm, görürəm kimsə bu cümləni güzgünün tərli üzünə barmağıyla yazıb. Çörək alıram, üstündə saxlama şəraiti yerinə "Bunlar yeyib doyublar" cümləsi çıxır. Gecə yuxuma, küçədə paltarımın altına, ayaqqabımın içinə girib məni incitməklə məşğuldur.

Harda qalmışdıq? Hə, sağlam bədəndə sağlam ruh yerində. Demək, müxalifətçi İlqar Məmmədovu İsmayıllıya vizasız getdiyi üçün 4 ildir türmədə saxlayırlar, belində şiddətli ağrılar var, osteoxondroz xəstəliyi tapılıb və sairə. Başqa bir sadə vətəndaş dünən Goranboyda polis şöbəsində qəfildən yıxılıb ölübdür. Niyə? Çünki bunlar idmanla məşğul olmur! Olsaydılar, indi azadlıqda gəzirdilər, hələ kimisə vurub öldürərdilər.

Sözümün canı odur ki, futbolçunu buraxsalar da bibisi uşaqları hələ zindanda qalır, məhz bu səbəbdən biz almanlara uduzduq. Əgər o canavara oxşayan uşaqlar həmin gün alman yığmasının məşqçisi Yoahim Lövə zəng vurub onu Tofiq Bəhramov stadionu yaxınlığında ağaclığa çağırıb bir-iki təpik vursaydılar, almanlar bizi 4:1 udmağa cürət edərdimi? Çörəyi çörəkçiyə vermək lazımdır. Hər bir futbolçunun arxasında, karyera pillələrini qalxmasında mütləq bir neçə vurub-tutan bibi uşağı, xala nəvəsi-zad iştirak etməlidir. Məsələn, Messi yaxşı futbol oynayana qədər onun qohumları 11 jurnalist öldürmüşdür, yalan yazıramsa "Neftçi"nin aldığı UEFA kuboku başıma düşsün, ilahi, amin! Yazını yaxında-uzaqda oxuyanlar üçün də bir salavat çevirək.

Salavat demişkən, qabaqlar bizim dənizdən adətən neft çıxırdı, indi neftçilərin meyiti çıxır. Prinsipcə, bunun xalqımız üçün böyük fərqi yoxdur, çünki hökumət "nefti insan kapitalına çevirəcəyini" bəyan etmişdi. Deyirdilər bizim əsas sərvətimiz neft deyil, insanlardır. Buyurun, bu da sizə əsas sərvət... Elə neftçilərin meyitlərini tapmaq üçün aparılan kəşfiyyat-axtarış işləri də xeyli dərəcədə geoloji kəşfiyyata bənzəyir. Bilmək olmur növbəti meyit dəryanın hansı cəhənnəmindən tapılacaqdır, çoxlu ölü birdən olacaq, yoxsa "yataq" zəif - bir ölülük olacaqdır.

Bu arada Dövlət Əmlak Komitəsi özəlləşdirmənin daha bir böyük dalğasını elan etmişdir, Nyu York birjası bu xəbərdən cırıq-cırıq olmuşdur. Keçən il Nəsimi rayonu ərazisində zibilliyin böyründə kubik üstündə dayanan QAZ-51 maşını özəlləşdirməyə çıxarılmışdı, indi isə Balakəndə yerləşən 66 nömrəli qədim "zapravka"nın şlanqları satılır. Olduqca qandonduran şok açıqlamalı mənbədən aldığımız xəbərə görə, Amerikada milyarder Rokfeller elə həmin obyektləri ala bilmədiyi üçün infarkt olub rəhmətə gedibdir.

Ancaq bu, bir versiyadır, nə biləsən, bəlkə onu da hansısa idmançımızın bibisi oğlu döymüşdü? İqtisadiyyatı güclü olan... Akademiya, bu cümləyə də əncam çək.

# Tehran və Kreml Minsk formatına düzəliş edir?

**İran-Azərbaycan əlaqələrinin dünyada yəqin ki, analoqu yoxdur. Bu əlaqələrə məxsusi çalar verən isə əlbəttə ki, İran adlı dövlətdə tarixən də, indi də Azərbaycan toponiminin, Azərbaycan subyektinin mövcudluğudur. Güney Azərbaycan amilinin varlığı, Güneyin 35-40 milyonluq toplumudur.**




## Moskvada kritik müzakirə - İran Qarabağ oyununa girir

### Ruhani təzə ildə ilk xarici səfərini Rusiyaya edəcək - əsas hədəf; Şuşa məscidində qanunsuz qazıntı işlərində İran izi - təsadüfmü?; "Tehranla Bakı arasında konfrontasiyanı əngəlləyən tək amil odur ki..."

Sirr deyil ki, ən əvvəl bu faktor Azərbaycan müstəqillik qazanandan bəri ikitərəfli münasibətlərin təməlində, ardınca isə cənub qonşumuzun Qarabağ konfliktinə və erməni işğalına yanaşmasında həlledici rol oynayıb və oynayır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ölkələrin sırasında İran 8-ci olub.

İran rəsmiləri bunu açıq bildirməsə belə, Azərbaycan və İran prezidentləri vaxtaşırı qarşılıqlı səfərlər edib dostluq və qardaşlıq haqda bəyanatlar versələr də, o da faktdır ki, Tehran sadalanan səbəblərdən Azərbaycan dövlətinin varlığını hələ də həzm edə bilmir - şimal qonşumuz Rusiya kimi.

Yəni bu nöqtədə Moskva və Tehranın mövqeləri tam üst-üstə düşür - İranda kimin prezident seçilməsindən asılı olmayaraq. Yeri gəlmişkən, bu ilin yayında İran növbəti prezident seçkilərinə gedəcək. İndiki prezident Həsən Ruhaninin hüququ və şansı var ki, öz postunda daha 4 il qalsın.

*****

Maraqlıdır k, seçki ilində, eyni zamanda həm də seçki ərəfəsində cənab Ruhani ilk rəsmi xarici səfərini Rusiyaya etməyi planlaşdırır. Bu barədə "Parstoday" resursu qeyri-rəsmi mənbəyə istinadən məlumat yayıb. Məlumata görə, rusiyalı həmkarı Vladimir Putinlə görüşü zamanı Həsən Ruhani iki tərəf arasında vizasız rejim, ticari əlaqələr, strateji və hərbi-texniki əməkdaşlıq məsələləri ilə yanaşı, Güney Qafqazdakı situasiya da müzakirə olunacaq. Söhbət təbii ki, həm də Dağlıq Qarabağ ixtilafından gedəcək.

**Ermənistanın "EADaily" nəşrinin bu xüsusda dərc etdiyi şərhdə bəzi maraqlı məqamlar yer alıb. Musavat.com-un məlumatına görə, nəşr yazır:** "Görüş zamanı son illər xüsusi aktuallıq qazanmış Dağlıq Qarabağ mövzusunun qaldırılması xeyli maraqlı görünür. Etiraf eləmək lazımdır ki, Qarabağa dair ATƏT-in Minsk Qrupunun iştirakı ilə mövcud olan və problemin həllinə qadir olmayan nizamlama formatı heç vaxt Tehranı qane etməyib. Çünki bu format regional dövlət kimi İranın rolunu nəzərə almır. Bununla belə, Tehran Azərbaycanın müttəfiq-tərəfdarı, konfliktdə öz marağı olan Türkiyənin həll prosesinə qoşulmasına da hər vəchlə müqavimət göstərib. İstənilən halda, Moskvada Qarabağa dair Rusiya-İran danışıqlarının perspektivi İran-Azərbaycan münasibətlərindəki gərginlik, həmçinin Tehranla Kremlin Suriyada ümumi uğurları fonunda daha çox diqqət çəkir".

**Lakin nəşr Tehran-Bakı əlaqələrində nə qədər inamsızlıq atmosferi olsa belə, iki tərəfi bir-birinə yaxınlaşdıran qarşılıqlı iqtisadi maraqları ciddiyə almağı zəruri sayır:** "İqtisadiyyat mahiyyət etibarilə yeganə səbəbdir ki, Tehranla Bakı arasında konfrontasiyanın inkişafını əngəlləyir. Tərəflər dəmir yolunun açılışına hazırlaşır - hansı ki, İranla Rusiyanı Azərbaycan vasitəsilə birləşdirəcək. İki ölkə arasında biznesin başqa sferalarında da fəal əməkdaşlıq var".

**Sadalanan gerçəkliklər fonunda "EAdeily" Moskvada İran və Rusiya prezidentləri səviyyəsində Qarabağ mövzusuna toxunulacağı təqdirdə söhbətin mürəkkəb olacağını ehtimal edir.** "Hərçənd Azərbaycana və Ermənistana münasibətdə Tehran və Kremlin mövqeləri xeyli dərəcədə oxşardır: Azərbaycan hələ ki onlardan ötrü iqtisadi cəhətdən maraq kəsb edirsə, Ermənistan - strateji əhəmiyyət daşıyır. Qarabağla bağlı belə bir qeyri-adi müzakirə formatı ola bilsin, yeni yollar və yanaşmaları ortaya qoysun. İranla Rusiya artıq Suriya konfliktinin nizamlanmasında bütövlükdə uğurlu hərbi-siyasi əməkdaşlığa malikdir. Odur ki, iki böyük dövlətin onlardan ötrü aktuallıq kəsb edən digər geosiyasi problemlərlə bağa birgə çalışması məntiqlidir".

*****

Erməni nəşrinin Qarabağ məsələsinin həllində İranın rolunu qabartması da öz növbəsində məntiqli və maraqlı görünür. Çünki işğalçı Ermənistan Türkiyənin deyil, məhz İran kimi özünə loyal və tərəfdaş ölkələrin vasitəçi qismində çoxluq təşkil eləməsinə çalışır. İranın necə bir vasitəçi olduğunu isə Şuşanın işğalı yaxşı xatırladır.

Bu da növbəti fakt. Dünən məlumat yayılıb ki, erməni tərəfi işğal altındakı Şuşa şəhərinin Yuxarı Məscidində *(Gövhər ağa cümə məscidində)* qazıntı və təmizləmə işlərinə başlayıb. APA-nın armenpress.am-a istinadən verdiyi xəbərə görə, işləri "Şərq tarixi irsinin dirçəlişi fondu" aparır. "Tarixi mühitin qorunması xidməti" adlı dövlət müəssisənin direktoru Marat Şahmaryanın sözlərinə görə, işlər 20-25 gün davam edəcək. "Xarici mütəxəssislərin köməyi lazım olmayıb. Ekspedisiya işləri tarix elmləri namizədi Njde Yeranyanın rəhbərliyi altında aparılır. Abidə həm hərbi münaqişə nəticəsində, həm də hava şəraitindən zərər çəkib", - deyə o bildirib.

"Eadeily" isə bildirir ki, qazıntı və rekonstruksiya işləri keçən ilin payızında Dağlıq Qarabağdakı separatçı rejimin "iqtisadiyyat nazirliyi" ilə İranın özəl şirkətlərindən olan "Pat Saman Jahan Co" arasında əldə olunmuş anlaşma əsasında aparılır. Belədirsə, üstəlik, anlaşmaya rəsmi Tehran indiyədək heç bir irad bildirməyibsə, o zaman bu, İranın müsəlman ərazilərinin işğal altında qalmasına ikili münasibətinin, ermənilərə gizli simpatiyasının növbəti təzahürü sayıla bilər.

*****

Sonda bunu da əlavə edək ki, İranla Rusiyanın Azərbaycan və Ermənistana, Qarabağa yanaşması nə qədər üst-üstə düşsə də, əslində Moskva Tehranın vasitəçiliyinə həmişə qısqanclıqla yanaşıb. Çünki Rusiya cənub qonşumuzu regionda özünün əsas geosiyasi rəqiblərindən biri hesab edib və edir.

Yəni İran ciddi şəkildə istəsə belə, Qarabağ formatına öz xeyrinə mühüm dəyişiklik eləmək imkanında deyil. Biz hələ Qərb (ABŞ) amilini demirik. Tehran Qarabağ oyununa girə bilər, ancaq bundan ötrü öncəliklə Ermənistanın yiyəsi - rusun "dobro" verməsi lazımdır. Kreml bunu verəcəkmi?

❑ **Siyasət şöbəsi**

# “Rusiya baharı”, yoxsa...

## Moskva daxil, Rusiyanın onlarla şəhərində başlanan etiraz aksiyalarının pərdəarxası; **politoloq:** “Putin xalqın dəstəyini itirib və...”

**Uzun fasilədən sonra Rusiyada sükut pozuldu, müxalifət küçə və meydanlara çıxdı. Martın 26-da Rusiyanın onlarla şəhərində Aleksey Navalnının Korrupsiya ilə Mübarizə Fondunun təşəbbüsü ilə aksiyalar keçirildi. Hakimiyyət bir çox şəhərlərdə, o cümlədən paytaxt Moskvada mitinqlər və təntənəli yürüşlərin yerli hakimiyyətlə razılaşdırılmamasını əsas gətirib güc tətbiq etdi, yüzlərlə etirazçı həbs edilib.**



Məlumata görə, Moskvada, Puşkin meydanında polis antikorrupsiya mitinqinə qatılanlar kütləvi şəkildə maşınlara doldurularaq aparılıb, aksiya iştirakçılarına qarşı dəyənəklərdən istifadə olunub. “Dojd” telekanalının məlumatına görə, Puşkin meydanına qaz buraxılıb. 200-ə yaxın xüsusi təyinatlı polis aksiyaçıları dağıdıb. Yüzlərlə mitinqçi Kreml tərəfə üz tutub. (virtualaz.org) Bundan əvvəl isə polis müxalifət fəalı, antikorrupsiya aksiyasının təşkilatçısı Aleksandr Navalnını saxlamışdı. Korrupsiyaya qarşı Mübarizə Fondunun baş nazir Dmitri Medvedyevin əmlakları barədə hazırladığı filmin nümayişindən sonra Rusiyanın onlarla şəhərində ictimai fəallar martın 26-da aksiyalar keçirəcəklərini bəyan etmişdilər. Navalnının bildirdiyinə görə, aksiyalar ölkənin 80-dən çox şəhərini əhatə etməlidir. Məlumata görə, polis Korrupsiyaya qarşı Mübarizə Fondunun Moskva ofisinin bütün əməkdaşlarını saxlayıb.

Müşahidəçilər daha “cinin şüşədən çıxdığını” güman edir. Hesab olunur ki, Rusiyadakı etirazçı elektoratın arxasında əslində Qərbin stimulverici addımları dayanır, hətta birbaşa dəstəyin olduğu da istisna edilmir. Bu fikirdə olan ekspertlər ABŞ başda olmaqla, Qərb dünyasının Rusiyaya qarşı illərdir davam etdirdiyi sanksiyaların effekt vermədiyi qənaətindədirlər. Onların fikrincə, Tramp administrasiyası Putin Rusiyası ilə “haqq-hesab” çəkməyin yeni üsuluna, daxildən prosesləri qızıdırmaq üsuluna əl atıb və konkretləşdirsək, Rusiyanı daxildən parçalamaqla bağlı hərəkətə keçib. İddia olunur ki, ABŞ həm Suriya, həm də İran məsələlərində Rusiya maneəsi ilə üzləşdiyi üçün qəti qərarını verib və nüvə ölkəsi ilə “haqq-hesab çürütmək” üçün daxili elektoratın gücündən yararlanmağı daha məqbul sayıb. ABŞ-ın artıq “tətiyi” sıxdığı, “Rusiya baharı”na start verildiyi də səslənən ehtimallardandır. Ancaq fərqli düşünənlər də var.

**“Müxalifətçi Aleksey Navalnının çağırışı ilə ölkə miqyasında keçirilən kütləvi aksiyalar hər şeydən əvvəl onu göstərdi ki, Rusiya cəmiyyətində kifayət qədər problemlər var və hər şey heç də Rusiya mərkəzi mediasının təqdim etdiyi kimi deyil”.**

**Politoloq Şahin Cəfərli bunu “Yeni Müsavat”a açıqlaması zamanı bildirdi. Ekspertin sözlərinə görə, əyani şəkildə ortaya çıxdı ki, rus toplumunda ölkənin yanlış istiqamətdə getdiyini dərk edən və buna etiraz etməyə özündə güc, cəsarət tapan protest elektoratı mövcuddur və ölkədə dərinləşən sosial-iqtisadi böhrana paralel olaraq onların sayı artır:** “Təhsil səviyyəsi yüksək olan əhalinin yaşadığı Moskva və Sankt-Peterburq kimi iki əsas meqapolislə yanaşı, Vladivostok, Xabarovsk, Novosibirsk, Çelyabinsk kimi siyasi aktivliyi ilə seçilməyən periferik məntəqələrdə minlərlə insanın küçəyə çıxması Kreml üçün ciddi siqnaldır. Aksiyalar üçün formal səbəb baş nazir Dmitri Medvedyev haqqında korrupsiya iddiaları idi. Məlum olduğu kimi, A.Navalnının Korrupsiya ilə Mübarizə Fondu baş nazirin fəaliyyəti barədə araşdırma aparıb və onun ölkə daxili və xaricində böyük maddi sərvətə, malikanələrə, yaxtalara, üzüm plantasiyalarına sahib olduğunu, korrupsiya mexanizmi quraraq iş adamlarından pul topladığını sübut edib. Bu barədə hazırlanan sənədli film ”YouTube"da 13 milyona yaxın baxış toplayıb. Lakin etirazçıların hədəfi təkcə Medvedyev deyildi, insanlar bütövlükdə rejimə və sistemə etirazlarını ortaya qoydular. Yəni prezident Putin sosial-iqtisadi problemlərə görə məsuliyyəti nə qədər hökumətin boynuna qoymağa çalışsa da, savadlı rusiyalılar mövcud sistemin başında məhz Putinin dayandığını yaxşı başa düşürlər". **Ş.Cəfərlinin sözlərinə görə, Rusiyada protest əhval-ruhiyyəsini gücləndirən əsas səbəb şübhəsiz ki, getdikcə nəticələri əhali arasında daha çox hiss olunmağa başlayan iqtisadi böhrandır:** “Ölkənin əsas ixrac məhsulları olan neft və qazın qiymətinin kəskin şəkildə aşağı düşməsindən sonra başlayan böhran davam edir. OPEC-in hasilatın azaldılması haqqında qərarından sonra müəyyən qədər yüksəlmiş qiymətlər yenidən enmə trendinə girib, bu isə o deməkdir ki, Rusiyada durum yaxşılaşmayacaq. Rəsmi statistikaya əsasən əhalinin real gəlirləri 2016-cı ilin fevral ayı ilə müqayisədə bu ilin eyni dövründə 4,1% azalıb. Rusiya rəhbərliyi resessiyanın, yəni iqtisadi tənəzzülün dayandığını elan etsə də, artım tempinin çox aşağı olması faktiki olaraq Rusiyanın Brejnev dövründəkinə bənzər durğunluq dövrünə qədəm qoyduğunu sübut edir. Ölkədən ”beyin axını" sürətlənir".

**Politoloq təsdiqlədi ki, Qərbin sanksiyalarının davam etməsi də vəziyyəti ağırlaşdıran amillərdən biridir:** “Rusiya elitasının Donald Trampa bəslədiyi ümidlər özünü doğrultmadı. Sanksiyaların ləğvi bir yana, ABŞ ötən günlərdə Rusiya hərbi-sənaye kompleksinin daha 8 şirkətini sanksiya siyahısına saldı. Rusiya Qərbin nəzarətində olan maliyyə bazarlarına çıxış imkanlarını itirib və ucuz kreditlər cəlb edə bilmir. Ölkə texnoloji inkişaf sahəsində Qərbdən ciddi şəkildə geri qalır. Müasir informasiya-kommunikasiya texnologiyalarından fəal istifadə edən, sosial mediada aktiv olan gənc nəsil, hətta yeniyetmələr yaranmış durumu daha yaxşı anlayır və mövcud durumla barışmaq istəmir. Son kütləvi aksiyaların nüvəsini də məhz onlar təşkil edib. Etirazın 2011-ci ilin Bolotnoye hadisələrindən 6 il sonra baş qaldırmasının siyasi səbəbi də var: gələn il Rusiyada prezident seçkiləridir. Əhalinin siyasi şüura malik passionar hissəsi dəyişiklik istəyir. Aleksey Navalnının seçkidə namizəd ola bilmək şansı onlarda ümid yaradıb. Əgər Navalnının namizədliyinə süni əngəllər yaradılmasa, seçki ərəfəsində Rusiyada ötən dövrdə müşahidə olunmayan siyasi aktivlik görə biləcəyik. Lakin bütün bunlar hələ o demək deyil ki, Vladimir Putin xalqın dəstəyini itirib və onun hakimiyyətinə real təhlükə var. Rusiya cəmiyyətindəki etirazlar hələ kritik həddə çatmayıb və rejimi təhdid edəcək səviyyədə deyil”.

**Ş.Cəfərli dedi ki, səssiz çoxluq, xüsusən Kremlin təbliğat ruporlarının təsiri altındakı yaşlı nəsil və orta nəslin böyük qismi Putini dəstəkləyir:** “Aleksey Navalnının Putin üçün nə dərəcədə layiqli rəqib olması da sual doğurur. Üstəlik, onu da nəzərə almaq lazımdır ki, Rusiyanın həqiqi müxalif qüvvələri, yəni parlamentdə təmsil olunmayan siyasi partiyalar və qruplar parçalanmış durumdadır. Onların seçkidə Putinin qarşısına vahid namizəd çıxarması mümkün görünmür. Putinin əsas problemi isə odur ki, onun tərəfdarları daha çox apolitik kütlədən ibarətdir və son Duma seçkiləri göstərdi ki, bu kütlə seçkiyə gəlmir. Duma seçkilərində iştirak faizi çox aşağı oldu və hakimiyyət iştirak faizini saxtakarlıq hesabına yüksəltdi. Putin əlbəttə ki, prezident seçkilərində saxtakarlıq hesabına yox, real səslərlə qalib gəlmək istəyir. Bu səbəblə, o, ölkədə aktiv seçki kampaniyasının aparılmasında maraqlıdır. Bəzi konspirativ iddialara görə, Navalnının aktivləşməsində məhz Putin özü şəxsən maraqlıdır. Çünki əks cəbhədə iddialı namizəd görən Putinin tərəfdarları ətalət vəziyyətindən çıxa və fəallaşa bilər. Son hadisələrdə Qərbin roluna gəldikdə isə mən burada Qərbin barmağını görmürəm. Qərbin Rusiya daxilindəki proseslərə təsir imkanları elə də çox deyil”.

❑ **E.PAŞASOY**

---

# Haqq etmədiyimiz məğlubiyyət



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Azərbaycanın futbol millisinin Almaniya yığması ilə Bakı görüşündə möcüzə baş vermədi. Hərçənd etiraf edək ki, hamımız daxilən bu möcüzəni gözləyirdik. Möcüzə təşnəsi idik.**

Möcüzə deyəndə ki, qələbəyə bərabər bir heç-heçə bəsimiz idi, ürəyimizdən yalnızca bu keçirdi. Əfsus, olmadı. Matçın gedişində 1:1 hesabı qeydə alınsa da, bu sevincimiz cəmi bir neçə dəqiqə sürdü.

Amma komandamız insafən, dünyanın 1 nömrəli millisinə, ən güclü futbol yığmasına qarşı ləyaqətlə mübarizə apardı, müqavimət göstərdi, bacardığını etdi. Yəni məğlubiyyəti bir növ, haqq elədik. Haqdan isə inciməzlər. Haqq etdiyin bir şey də səni heç vaxt incitməz.

Məsələ də ondadır ki, özündən güclüyə yenilmək heç vaxt adamı ağrıtmaz, onda aşağılıq kompleksi yaratmaz. Udanda da, uduzanda da gərək güclünü udasan, güclüyə uduzasan. Kişi kimi qalib gələsən, kişi kimi məğlub olasan. Ancaq hər iki halda - həm udanda, həm də uduzanda gərək öncə oynayasan, mübarizə aparasan, nəinki əvvəlcədən öz taleyinlə barışasan.

Özündən gücsüzə məğlub olmaq və ya ədalətsiz hakimlərin əli ilə uduzdurulmaq əlbəttə ki, qürura toxunur - istər komanda, fərd olaraq, istərsə də millət, toplum olaraq. Necə ki, ədalətsiz münsif (vasitəçi) olan Rusiyanın əli ilə bizdən qat-qat gücsüz Ermənistana Qarabağ məsələsində haqsız şəkildə uduzdurulmuşuq. Üstəlik, revanş götürmək imkanlarımız da əngəllənir...

Haqlı məğlubiyyət adamı rahatsız eləməz. Qarabağ məğlubiyyəti məhz ədalətsiz, haqsız olduğu üçün də illədir bizi içəridən yeyir, ağrıdır, incidir. Bu acı hissdən azad olmağın iki yolu görünür: 1. Ədalətsiz hakim-vasitəçidən - Rusiyadan qurtulmaq. 2. O qədər güclənmək ki, hətta həmin ədalətsiz hakim də səni uduzdura bilməsin.

İkinci halda bu, ona bənzəyir ki, futbol matçında hakim nə qədər tərəfkeşlik eləsə belə, tərəfkeşlik etdiyi zəif tərəf onun lütfündən yararlana bilmir, çünki güclü tərəfin əzici üstünlüyü imkan vermir.

Qarabağ məsələsində də Azərbaycan dövlət olaraq o dərəcədə güclənməlidir ki, Rusiyanın tərəfkeşliyi belə Ermənistanı xilası edə bilməsin, bu tərəfkeşlik önəm daşımasın, hiss olunmasın.

Bəs necə güclənməli? Çox sadə. Azərbaycan-Almaniya matçının nəticəsi özlüyündə hər şeyi deyir: əgər bir ölkənin futbolu güclüdürsə, deməli, iqtisadiyyatı, sənayesi, hərbisi də, hətta kənd təsərrüfatı da, bir qayda olaraq, güclü və qüdrətlidir.

Almaniya tək futboldamı öncüldür? Əlbəttə ki, yox. Almanların avtomobilləri, hərbi texnologiyaları, ağır sənayesi, kənd təsərrüfatı, səhiyyəsi, elmi-təhsili də qabaqcıldır, liderdir.

Sözümüzün canı odur ki, qərəzli münsiflər olsa belə, əgər biz ermənilərə hərb meydanında qalib gəlsək, demək, futbol meydanında da güclülərə qalib gələ biləcəyik. Bunlar bir-birinə bağlı məsələlərdir.

Ən başlıcası, güclü dövlətin ərazisinin bir qarışı belə işğal altında qala bilməz. Doğru, Ermənistan zəif dövlətdir, zəif dövlət isə işğalçı ola bilməz, amma Ermənistan işğalçıdır. Çünki arxasında Rusiya dayanır. Ermənistanın əli ilə bizə yumruq atan da odur - təcavüzkarın havadarı Rusiya.

Bu, şəksiz ki, bərabər, ədalətli oyun, ədalətli müharibə deyil. Lakin ilk baxışda çıxılmaz görünən belə qəliz vəziyyətdən də çıxış yolu var: bu da odur ki, arxamızda Rusiya kimi bir gücün durmasına nail olmalıyıq. O zaman həmin güc Rusiyanı, biz isə Ermənistanı asanca neytrallaşdıracağıq.

Arxamızdakı güc deyəndə tək Türkiyə nəzərdə tutulmur - zaman göstərdi ki, Moskvanı təsirsiz hala gətirmək, Ermənistanı yuvasında oturtmaq üçün bu, kifayət deyil. Türkiyə də daxil, demokratik dünyanı nəzərdə tuturuq. Qarabağda haqq etdiyimiz qələbəyə ən asan yol bundan keçir. Söhbət həm də müharibə variantını istisna edən diplomatik qələbədən gedir...

Azərbaycan indi qan tökülməməsi naminə hətta ədalətli “heç-heçə”yə də razıdır. Yəni Dağlıq Qarabağ üçün konfliktdən öncəki muxtariyyət statusu bərpa oluna bilər. Di gəl ki, öz ağası Rusiyanın hesabına haram qələbə qazanmış Ermənistan hələ ki bunu yaxına buraxmır, yalançı eyforiya içindədir.

Olsun. O zaman Levon Ter-Petrosyanın xəbərdarlığı çin olacaq: erməni eks-prezident demişdi ki, vaxt gələcək indi bizə edilən təklif üçün Azərbaycana yalvaracağıq...

**16 apreldə Türkiyədə prezident-üsul idarəsinə keçidi nəzərdə tutan konstitusiya dəyişikliyi ilə əlaqədar keçiriləcək referendum həm dəstəklənir, həm də buna qarşı olanlar var. Referendum və onun nəticələrini dəstəkləyənlər "evetçi"lər, bunun əleyhinə çıxanlar isə "hayırçı"lar olaraq adlandırılır. Günlərdir ki, sosial şəbəkələrdə, mediada da bu iki qrup arasında müzakirələr gedir. Azərbaycanda da bu proseslər maraqla izlənilir və burada da Türkiyədə keçiriləcək referendumla bağlı fikirlər müxtəlifdir.**

# Azərbaycanda "evet" və "hayır" tərəfdarları

## Yerli politoloqlar, mətbuat nümayəndələri Türkiyədə keçirilən referendumla bağlı fərqli mövqe bildirir...

Daha öncə ölkə müxalifətindən "evetçi", yoxsa "hayırçı" olmaları ilə bağlı sorğu etmişdik. Müxalifət təmsilçilərinin referendumla bağlı yanaşmaları fərqli olsa da, ümumi arzuları bir idi: Türkiyənin daha da qüdrətlənməsi. Eyni sualla mətbuat nümayəndələrinə və politoloqlara müraciət etdik.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, o, heç bir tərəfdən deyil:** "Bu məsələ Türkiyənin daxili işidir. Ona görə də qarışmaq istəmirəm".

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov isə söylədi ki, o, "evet" deyir:** "Şübhəsiz ki, mən "evet" deyirəm. Çünki son dövrdə Ərdoğanın yeritdiyi siyasət türk xalqı tərəfindən böyük dəstək qazanıb. Bundan başqa, Türkiyənin iqtisadi yüksəlişi də göz önündədir və bizim hamımız bunu görürük. Baxmayaraq ki, Türkiyədə bir sıra təlatümlər yaşandı, artıq qardaş ölkənin siyasi nüfuzunun Avropada artmasının şahidiyik. Biz Türkiyənin hərbi gücünə də bələdik. Bütün bunlar hamısı uzunmüddətli, təkbaşına bir partiya və onun lideri olaraq Ərdoğanın Türkiyəyə rəhbərliyi dövründə baş verdi. Bunu türk xalqı da, Türkiyənin düşmənləri də yaxşı anlayır. Buna görə də Türkiyənin düşmənləri ona qarşı təpkiləri artırırlar. Təsir, təzyiq göstərib, əngəllər yaratmaq istəyirlər. Hesab edirəm ki, Ərdoğan iqtidarının irəli sürdüyü referendum türk xalqı tərəfindən dəstəklənəcək və onun nəticələri də Türkiyə dövlətinin daha da qüdrətlənməsinə, nüfuzunun artmasına səbəb olacaq".

**Politoloq Mübariz Əhmədoğlu isə bildirib ki, o, "hayır" deyənlərin tərəfindədir:** "Ərdoğan hakimiyyətə gələn zaman kursu elə götürdü ki, bu, Türkiyənin gerçəkdən də iqtisadi müstəqilliyinə səbəb oldu. O zaman Ərdoğan hökuməti həm Rusiya, həm də MDB məkanındakı türkdilli dövlətlərlə çox gözəl münasibət qurmuşdu. İndi isə Türkiyədən durub MDB məkanına baxdıqda, bir qədər fərqli siyasət görünür. Mən Türkiyəni uğura aparan siyasətin tərəfindəyəm. Ona görə də aparılacaq islahatlar əvvəlki dövrün siyasətinə şərait yaradacaqsa, aparılması yaxşıdır. Lakin düşünürəm ki, keçiriləcək referendum Ərdoğanın Türkiyənin ətrafında yaranmış vəziyyətə, yeni təhdidlərə o qədər də uyğun gəlməyən cavab reaksiyasıdır. İstəməzdim ki, Türkiyənin indiki siyasəti davam etsin. Ən azı ona görə ki, Ərdoğan hökumətinin yaxşı siyasət aparmaq qabiliyyətini görmüşük. Əvvəlki komanda bacarığının tərəfdarı olduğum üçün referenduma "hayır" deyirəm".




**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev "Yeni Müsavat"a söyləyib ki, hər şey Türkiyə xalqının iradəsindən asılıdır:** "Bizim kimin tərəfində olmağımızdan asılı olmayaraq, əsas qərarı Türkiyə xalqı verməlidir. Sözsüz ki, bizim də Türkiyə üçün "evet"in, ya "hayır"ın daha önəmli olması barədə öz mülahizələrimiz var. Lakin bizim fikirlərimiz Türkiyədə heç nəyi dəyişməz. Ona görə də belə hesab edirəm ki, Türkiyəyə qardaş olan bütün ölkələr, o cümlədən də biz indiki şəraitdə yalnız bu mövqedə ola bilərik ki, Türkiyədəki referendum uğurla yekunlaşsın, türk cəmiyyətində əksəriyyət, eyni mövqedə olduğunu nümayiş etdirsin. Nəticə də əksəriyyət tərəfindən qəbul olunsun və bu referendumun nəticələri Türkiyənin inkişafında yeni mərhələ aça bilsin. Hər şey Türkiyə xalqının iradəsindən asılıdır".

**"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli də sorğumuza cavabında "hayır" deyənlərin tərəfində olduğunu dedi:** "Mənsub olduğum siyasi partiya, həmçinin də mən parlamentli idarəetməyə daha çox üstünlük veririk və bu təşəbbüslə çıxış edirik. O aspektdən yanaşdıqda, təbii ki, "hayır"ın tərəfindəyəm. Hesab edirəm ki, Türkiyənin mövcud siyasi sistemi inkişafa daha çox töhfə verə bilər. Digər tərəfdən isə Türkiyənin bu gün düşdüyü reallıqları da başa düşürəm. Ola bilsin ki, bizim görmədiyimiz məqamlar var və daha çevik qərarların qəbul olunması üçün prezident-üsul idarəsinin tətbiqi daha effektiv ola bilər. Hər halda, bu da mübahisəli bir məsələdir. Ümumilikdə deyim ki, mən "xeyr"in tərəfindəyəm".

**Azinform.az saytının rəhbəri Məhəmmədəli Qəribli də hayırçı"ların tərəfindədir:** "Türkiyənin mövcud reallıqları referendumda "evetçilər"in daha çox qazanacağını diktə edir. Ancaq Türkiyədə əvvəlki idarəetmə modelinin qalmasını istəyən bir adam kimi, mən bu məsələdə "hayırçılar"ı dəstəkləyirəm".

❑ Əli RAİS

# Millimizin alman məğlubiyyəti və gələcək ümidlər...

**Azərbaycan milli komandası martın 26-da gələn il Rusiyada keçiriləcək Dünya Çempionatının seçmə mərhələsində növbəti oyununu keçirdi və Almaniya yığmasına böyük hesabla məğlub oldu. 1-4 hesablı məğlubiyyətdən sonra yığmamız qərarlaşdığı C qrupunda dördüncü pilləyə düşdü.**

Aktivində 7 xalı olan millimiz qrupun lideri almanlardan 8, ikinci sıradakı Şimali İrlandiyadan 3, Çexiya yığmasından isə 1 xal geri qalır. Almaniyaya məğlubiyyətdən dərhal sonra oyunla bağlı ölkə ictimaiyyəti iki hissəyə parçalandı, sosial şəbəkələrin bir anda əsas mövzusu millilərimiz oldu. Əksəriyyət Azərbaycan millisini alınan nəticədən daha çox oyununa görə tənqid edir, futbolçularımız doğma azarkeşlər önündəki oyunlarına görə ciddi qınaq obyekti ilə üzləşirlər. Amma bununla belə, onları müdafiə edənlər də az deyil.



**Natiq Muxtarlı:** "Turnir cədvəlinə görə ümidsizliyə qapılmayaq"



**Fazil Mustafa:** "Ümidverici oyun oldu"

**Komanda.az saytının redaktoru Natiq Muxtarlı** Almaniya ilə oyun öncəsindən qələbə ümidlərimizin olmadığını söylədi: "90 dəqiqə ərzində müəyyən ümidverici amillərə rast gəlmək mümkün idi. Ən azından Almaniya kimi güclü milliyə qarşı hücum qurmaq potensialımız ortaya çıxdı. Oyunun müəyyən anlarında millimiz topu özündə çox saxlamağı da bacarırdı. Etiraf edək ki, Almaniya kimi komandaya qarşı Braziliya kimi milli də topu özündə saxlamağa çətinlik çəkir. Bu baxımdan, millimizin oyunu ümidverici amillərə yol açdı. Bu oyun eyni zamanda Berti Foqtsun dövründəki milli ilə Robert Prosineçki millisi arasındakı fərqi üzə çıxardı. Məlum oldu ki, yığmamıza lazım olan oyun stili budur. Futbolçularımıza öz oyun texnikalarını nümayiş etdirmək üçün şərait yaradılmalıdır. Foqtsun vaxtında baxımsız oyun nümayiş etdirir, bütün hallarda məğlub olurduq. Almaniya qarşısında topladığımız təcrübə bizə qarşıdan gələn Şimali İrlandiya, Çexiya və Norveçlə oyunlarda lazım olacaq. Almaniya oyunu onu da göstərdi ki, Azərbaycan futbolçularının bəzilərinin ustalıq səviyyəsi olduqca aşağıdır. Oyun ərzində buraxdığımız səhvlər bunu göstərdi. Almaniya kimi komanda belə səhvləri bağışlamır. İndi bu səhvlər üzərində işləməliyik. Bu oyunda diqqət yetirsəniz görərsiniz ki, əsas səhvləri Əfran İsmayılov və Məhəmməd Mirzəbəyovun olduğu cinahlardan buraxdıq. Rəqib də bu cinahların zəif olduğunu görüb, bütün hücumlarını bu istiqamətdən qururdu. Digər rəqiblər də sözsüz ki, bizi təhlil edərkən, bu nüansları diqqətə alacaqlar. O cinahlardakı boşluqlar mütləq doldurulmalıdır. İsmayılov və Mirzəbəyovun yerinə mütləq oyunçu tapılmalıdır. Onlar əvəzedilməz futbolçu deyillər. Ümumi götürəndə bu oyunda futbolçularımızın çəkinməməsi, istəkli olmaları bizə ümidlənməyə əsas verir. Xüsusilə 3-4 oyunçunu daha çox bəyəndim. Bunlar Pavel Paşayev, Dmitri Nazarov, Qara Qarayev və Ramil Şeydayev idi. Bu oyunçulardan ikisi Azərbaycan futbolunun deyil, Rusiya və Almaniya futbolunun yetirmələridir. Aydın hiss olunur ki, onlar yaxşı məktəb keçiblər. Yaxşılardan olan yeganə futbolçumuz Qara Qarayevin ölkə xaricinə getməsinə mütləq şərait yaradılmalıdır. Onun potensialını tam açması üçün xaricdə olması mütləq vacibdir. Kamran Ağayev, Əfran İsmayılov və Məhəmməd Mirzəbəyovun oyunda yad elementlər kimi görünmələri açıq şəkildə göründü. İkincilik uğrunda mübarizədə bu səhvlər mütləq aradan qaldırılmalıdır. Hazırda yer aldığımız qrupda elə vəziyyətdir ki, hər oyundan sonra yeni dəyişikliklər yaranır. Almaniyanı çıxmaq şərti ilə, San-Marino istisna olmaqla, yerdə qalan ölkələr ikincilik üçün əvvəlcədən mübarizə aparmalıdır. Bu yeri tutmaq üçün şanslarımız kifayət qədər yüksəkdir. Çünki Şimali İrlandiya və Çexiya kimi millilər ölkəmizdə qəbul edəcəyik. Səfərdə görüşəcəyimiz Norveç o qədər də potensiallı deyil, bunu Şimali İrlandiya ilə oyunda gördük. Bu baxımdan, Norveçi səfərdə də məğlub edə bilərik. İndiki turnir cədvəlinə görə ümidsizliyə qapılmayaq. Sadəcə, hər oyundan maksimum nəticə ilə ayrılmağa köklənmək lazımdır".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa millimizin qrupda ikinci olmaq şanslarının çox aşağı olduğunu düşünür:** "Şimali İrlandiya hazırda yüksəlişdə olan yığmadır. Onu keçmək Azərbaycan üçün çox çətindir. Çexiyanı da kənara qoymaq olmaz. Görünən odur ki, qrupda ikincilik savaşının Şimali İrlandiya və Çexiya arasında gedəcəyi daha realdır. Ölkəmiz daha çox bu qrupda 4-cü olmaq üçün nələrsə edə bilər. Norveç və San-Marinonu qabaqlamaq mümkündür. Almaniya ilə oyun, açığı, xoşuma gəldi. 1-1-dən sonra ikinci və üçüncü toplar sırf təcrübəsizlikdən buraxıldı. İrəlidə olan oyunçular qısa paslardan daha çox fərdi aldatmalara üstünlük verməyə başladılar. Bunu alman futbolçulara etmək doğru deyildi. Xüsusilə İsmayılov orada sadə formada topu geriyə atmalı olduğu halda seçdiyi yol qolla nəticələndi. Qapıçının da əlverişli yer seçməsi çox önəmli idi. Nazarovun qolu çox gözəl idi. Almaniya kimi yığmaya qarşı bu qolu vurmaq böyük uğurdur. Almaniyanı udmaq kimi gözləntim yox idi. Amma futbolçularımız meydanda kifayət qədər diri qala bildilər. Özlərinə məxsus şəkildə ən azı müdafiə oluna bildilər. Mənim üçün ümidverici oyun oldu. İndiki heyətimiz kifayət qədər mobildir. Açığı, Almaniya ilə oyunun bu şəkildə tənqid olunmasının əleyhinəyəm. İnsanlar nəticə üzərində fikir yürüdə bilərlər. Amma bu yığma Braziliyada həmin ölkənin qapısından 7 top keçirən millidir. O zaman hamı Braziliyadan üz döndərməli idi? Məğlubiyyət yaxşı hal deyil, mən də üzülürəm".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Serj Sərkisyan özü ilə birlikdə Ermənistanı da batırmaq istəyir

**Müdafiə Nazirliyi:** “Ermənistanın rəhbərliyi məsuliyyətsiz bəyanatlar verməzdən əvvəl əhalisinin aqibətini düşünməlidir”; siyasi və hərbi təhlilçilər işğalçı ölkənin prezidentinin seçicilərə hesablanmış son bəyanatlarını dəyərləndirir; “Sərkisyan və onun komandası yenidən hakimiyyətə sahiblənərsə, bu, Ermənistanın sonu olacaq...”

**Parlament seçkiləri ərəfəsində özünün gərgin günlərini yaşayan Ermənistan prezidenti Serj Sərkisyanın Dağlıq Qarabağa növbəti qanunsuz səfəri və Azərbaycanı hədələməsi həyasızlıq nümunəsi olmaqla yanaşı, həm də hakimiyyətini qorumaq cəhdidir. Hər halda, Ermənistandakı seçki mübarizəsi ondan xəbər verir ki, 2 aprel seçkisi Sərkisyan üçün heç də asan keçməyəcək.**



Düzdür, erməni prezident öz rəqiblərini sıradan çıxartmaq üçün ağlasığmaz metodlara əl atır. Necə ki, Qarabağ separatçılarından biri, “Ohanyan-Raffi-Oskanyan” blokunun üzvü Samvel Babayanı “zenit-raket kompleksi” əldə etməkdə ittiham ediblər. Sabiq müdafiə naziri Seyran Ohanyan həbsin bir addımlığında olduğunu yaxşı anlayır, ancaq buna baxmayaraq, geri çəkilməyəcəklərini bəyan edir.

Digər tərəfdən, keçmiş prezident Levon Ter-Petrosyanın rəhbərlik etdiyi “Konqress-Ermənistan Xalq Partiyası” bloku da seçkilərə müdaxilə edən təhsil nazirinin istefasını tələb edib. Günün birində bu tələb S.Sərkisyanın bütün komandasına yönələ bilər. Odur ki, dayaqlarını itirən, xalqın etimadından məhrum olan Sərkisyan hərbi mundirini geyərək Xankəndindən mesajlar verməklə seçiciləri ələ almağa növbəti cəhd göstərdi.

**2008-ci ildən prezident postunu tutan Serj Sərkisyan Dağlıq Qarabağa 25 dəfə (!) qanunsuz səfər edib. Ancaq budəfəki səfərində onun öz taleyindən narahatlığı diqqətdən yayınmadı.** “Məndən həmişə soruşurlar ki, 2018-ci ildən sonra nə ilə məşğul olacaqsan? Əslində mən ömrüm boyu heç vaxt növbəti mərhələ ilə bağlı plan qurmamışam. Hər zaman bizim təhlükəsizliyimiz üçün harada xeyir verə bilərəmsə, orada olmuşam. Mən bilmirəm 2018-ci ildə siyasi struktur necə olacaq. Amma başçılıq etdiyim partiya qarşıdan gələn parlament seçkisindən qalib çıxsa, hər hansı bir statusda xalqın təhlükəsizliyi işində rol ala bilərəm. Mən bilmirəm, bu nə status olacaq. Amma hər hansı bir statusda gərəkli ola biləcəyim dəqiqdir”. (novator.az).

Göründüyü kimi, S.Sərkisyan çox həyəcanlıdır və seçkidə birmənalı qalib ola biləcəyini deməyə ürək eləmir. Amma ermənilərin səsini qazana biləcəyinə şübhə edən Sərkisyan nədənsə ən müasir silahlarla təchiz olunmuş Azərbaycan ordusuna zərbə endirə biləcəyi haqda əminliklə danışıb.

Aprelin 2-də Ermənistanda parlament seçkisi keçiriləcək. 2015-ci ildə qəbul edilmiş yeni konstitusiya ilə ölkə mərhələ-mərhələ parlament respublikası idarə üsuluna keçir. Ana qanuna görə, hökuməti proporsional sistemlə seçilən 101 nəfərlik parlamentdə azı, 53 mandatı olan partiya quracaq. 2018-ci ildə Serj Sərkisyanın prezident səlahiyyətləri başa çatandan sonra icra hakimiyyəti və dövlət idarəçiliyi sisteminə ümumi rəhbərliyi hökumət həyata keçirəcək. Yalnız dövlət başçısı funksiyası daşıyan prezidenti isə parlament seçəcək. S.Sərkisyan çox istərdi ki, növbəti mərhələdə baş nazir kürsüsünə otursun. Ancaq erməni xalqına qarşı törətdiyi cinayətlər, müxalifətin reytinqinin artması, üstəlik, onun özünün vaxtaşırı Rusiyanın sınaqlarından çıxa bilməməsi vəziyyəti qəlizləşdirib. Bütün bunları göz önünə alan S.Sərkisyan təbliğatını Qarabağ məsələsi üzərində qurub. Onun Azərbaycanı “İsgəndər” raketləri ilə hədələməsi də seçki təbliğatının tərkib hissəsi sayılır.

***

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, Sərkisyan Dağlıq Qarabağa qeyri-qanuni səfərlərinə adətən hərbi geyimdə gəlir:** “Yəni düşünür ki, bununla həm separatçılara, həm də bölgədə yaşayan ermənilərə ruh yüksəkliyi verir. Görünür, Dağlıq Qarabağda yaşayan ermənilər daima müharibə təhlükəsi altında yaşamaqdan beziblər. Təsadüfi deyil ki, Sərkisyan budəfəki səfərində yerli əhalini rahatlatmaq üçün Azərbaycanı Rusiyanın ”İsgəndər” raketləri ilə “qorxudub”. Ağlı başında olan erməni bilməlidir ki, əgər növbəti hərbi toqquşma zamanı Ermənistan Azərbaycana qarşı “İsgəndər” raketlərindən istifadə etsə, Ermənistan bundan beşqat ağır zərbə alacaq”.

**Ekspert qeyd etdi ki, düşməni susdurmağa qadir olan raketlər Azərbaycanda da boldur və Ermənistandan fərqli olaraq həmin raketlərdən istifadə üçün ikinci dövlətin icazəsini almağa ehtiyac yoxdur:** “Sadəcə, Sərkisyan ”Azərbaycana qarşı İsgəndər raketlərindən istifadə edə bilərik" deyəndə gərək rəsmilərimiz dərhal onun cavabını verərdilər. Məsələn, Ermənistanın müdafiə naziri “Mingəçevir Su Elektrik Stansiyasını vura bilərik” deyəndə Azərbaycanın müdafiə naziri bizim də “Metsamor”u göyə uçura biləcəyimizi demişdi. Bundan sonra erməni generallar susdular. İndi də Sərkisyanın cavabı bu şəkildə verilməliydi ki, çaşıb Azərbaycana qarşı “İsgəndər” raketlərindən istifadə etsəniz, bizim raketlər Ermənistanı tam hədəfə alacaq və Ermənistanda yaşayan heç bir erməni özünü təhlükəsiz hiss etməyəcək".



Elxan Şahinoğlu



Elçin Mirzəbəyli



Üzeyir Cəfərov

**Politoloq Elçin Mirzəbəyli də şübhə etmir ki, Sərkisyanın Dağlıq Qarabağa qanunsuz səfəri aprelin 2-nə təyin olunmuş seçkilərlə bağlıdır:** “Bir qayda olaraq, Ermənistan prezidentləri hər seçki öncəsi Dağlıq Qarabağa səfər edir və oradan öz mesajlarını Ermənistan cəmiyyətinə ünvanlayırlar. Sərkisyanın səfəri və mesajları onu ifadə edir ki, Xocalı qatili hər zaman olduğu kimi Qarabağ klanına arxalanır və onun rəhbərlik etdiyi partiya hakimiyyətdə qalacağı təqdirdə yenə də bu klanın maraqlarından çıxış edəcək. Bu səfərin ilk mesajı da elə budur. Sərkisyan siyasətdə qalacağını bəyan etməklə əslində hakimiyyətdən getməyəcəyi mesajını da verir. Onun açıqlamalarından belə anlaşılır ki, daha çox konstitusiyaya edilmiş dəyişikliyə əsasən parlamentin seçəcəyi prezident kürsüsünə iddialıdır. Əslində bu açıqlama Ermənistanda konstitusiyaya edilən dəyişikliklərin mahiyyətini də ortaya çıxarır. Yəni əgər konstitusiyaya dəyişiklik edilməsəydi, ümumxalq səsverməsi yolu ilə keçirilən seçkilərdə Sərkisyanın hətta total saxtakarlıq edərək hakimiyyətdə qalması çətin olacaqdı. Çünki Ermənistanda Sərkisyana bir fərd olaraq böyük nifrət var. Digər tərəfdən, ola bilsin ki, Sərkisyan ümumxalq səsverməsi ilə yenidən prezident seçiləcəyinə əmin olmayıb. Buna mane olan daxili və xarici səbəblərin çoxluğu onu konstitusiya dəyişikliyinə getməyə vadar edib. İndi isə o, ”döyüşə" öz partiyasının nümayəndələrini göndərib. Özü qismən də olsa hadisələrin mərkəzindən kənarda qalıb. Parlament seçkilərindən sonra isə partiyasının və yedək partiyaların təmsilçilərinin səs çoxluğu ilə yenidən prezident kürsüsünə sahiblənəcək. Doğrudur, səlahiyyətləri əvvəlki kimi olmayacaq, amma proseslərə nəzarət edə biləcək. Hazırda 2 aprel seçkisinin Sərkisyanın sonu olacağını söyləmək üçün heç bir əsas yoxdur. Amma Sərkisyan və onun komandası yenidən hakimiyyətə sahiblənərsə, bu, Ermənistanın sonu olacaq".

***

Deyəsən, aqoniya vəziyyətində olan erməni prezident Azərbaycanın silah arsenalını genişləndirdiyini unudur. Bəlkə də bunu ona xatırlatmaq üçün daha bir “aprel zərbəsi” lazım gələcək. Keçən ilin aprelində necə sarsılmışdısa, Almaniya kanslerinə erməni ordusunun 80-ci illər istehsalı olan köhnə silahlarla təchiz olunmasından şikayətlənmişdi. Düşmənə cavab zərbələri endirmək üçün Pakistandan aldığımız “JF-17 Thunder” döyüş qırıcıları da Azərbaycana əlavə imkanlar vəd edir.

“Sərkisyan özü də bilir ki, Naxçıvandakı əlahiddə ön qoşun ordusunda ən müasir, həm göstərdiyimiz, həm də göstərmədiyimiz raket-artilleriya qurğuları var. Türkiyədən aldığımız ”Qasırğa" kompleksi Ermənistanda daşı daş üstündə qoymayacaq". Bunu isə hərbi ekspert Üzeyir Cəfərov deyib. Onun sözlərinə görə, Azərbaycan silahlı qüvvələri, xüsusən də hərbi hava qüvvələri və hava hücumundan müdafiə qoşunları 24 saat hər şeyi ciddi nəzarət altında saxlayır.

**Yeri gəlmişkən, Azərbaycan Müdafiə Nazirliyi Ermənistan prezidenti Serj Sərkisyanın “İsgəndər” operativ-taktiki raketlərindən istifadə edilməsinə əmr verəcəyi barədə bəyanatına cavab verib. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Sərkisyanın bu bəyanatı öz cinayətkar dəstəsinin itirilmiş nüfuzunu bərpa etmək və seçkiqabağı xal toplamaqla reytinqini yüksəltmək məqsədilə daxili auditoriyaya hesablanmış primitiv bir addımdır:** “Düşmən tərəf anlamalıdır ki, Azərbaycanın işğal edilmiş əraziləri, o cümlədən Ermənistanda yerləşən bütün hərbi təyinatlı və digər strateji əhəmiyyətli obyektlər ordumuzun son illər ərzində əldə etdiyi ən müasir raket və artilleriya qurğularının daim hədəfindədir. Ermənistan tərəfindən yarana biləcək istənilən təhdid və hədələrin qarşısı dərhal və qətiyyətlə alınacaq. Görüləcək cəza tədbirləri nəticəsində Ermənistanın məruz qalacağı irimiqyaslı itkilər və dağıntılar qaçılmaz olacaq, onun üçün faciəvi və bərpası mümkün olmayan fəsadlara gətirib çıxaracaq. Odur ki, Ermənistanın rəhbərliyi belə məsuliyyətsiz bəyanatlar verməzdən əvvəl əhalisinin aqibətini düşünməlidir”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017



# Şanslı kürəkən

Samir SARI

**Qayınatadan yarımaq başqa şeydir, hər adama qismət olmur. Oğlanlar var ki, özünü yendirib qayınatasından bir qalstuk da götürmür, oğlanlar da var ki, qayınatasının hesabına nazirlikdə idarə rəisi olur, milyonlar qazanır. (Qayınatasının üzünə durub tutdurduğu kürəkən də var, canını qurtara bilmir).**

Əlbəttə, burada qayınatanın da ranqını, maddi imkanlarını, nüfuz dairəsini nəzərə almaq gərəkdir. Santexnik qayınata əziz-xələf kürəkəninə nə bağışlaya bilər? Qaz açarı, drel-zad. Amma nazir qayınata əziz-girami kürəkəninə çox şey bağışlaya bilər, məsələn, "Mercedes Galendevagen", dəniz qırağında villa, deputat mandatı, ən ölüsü, şöbə rəisi-filan.

Hətta adının çəkilməsini istəməyən bəzi prezidentlər var ki, kürəkənlərinə energetika naziri vəzifəsi veriblər. O da elə vəzifədir ki, iki günün qazancıyla təyyarə də almaq olur, villalar sitesi də, hotellər kompleksi də.

Təbii ki, bu dediklərim əsasən şərq tərəflərə aiddir. Qərbdə prezident və ya baş nazir qayınatanın öz əziz kürəkəninə vəzifə və ya bahalı əmlak verməsinə pis baxırlar.

Heç o boyda İsveçin kralı kənddə idman müəllimi olan kürəkəninə dövlət vəzifəsi və ya Allahın ikinci əl "Volvo"sunu vermədi, eləcə hersoq titulu verdi. İdman müəlliminin qazancı o oldu ki, şahzadə ilə bir evdə yaşayır, bir də sümüyünü kral sümüyünə calayıb, özü bir şey olmasa da, övladı şahzadə olacaq.

Şərq başqadır, şərqdə kürəkən oğul əvəzidir, özünü yaxşı aparsa, ona hər şey verirlər.

İndi Donald Tramp çalışır ki, Qərbdəki qayınata institutunun Şərqdəki analoji institut qarşısında olan çatışmazlığını aradan qaldırsın. O, hələ özünün andiçmə mərasimində kürəkənini ön plana çıxararaq, dünyaya göstərdi ki, Cared Kuşner adlı bu gənc balaca adam deyil və gələcəkdə daha böyük adam olacaq.

Budur, hazırda Tramp öz kürəkəni üçün Ağ Ev administrasiyasında yeni idarə açır. Kuşner bundan əvvəl onun müşaviri idi, görünür, bu vəzifə ona azlıq edib, indi idarə rəisi olacaq.

Güman var ki, kürəkən hər şeyə nəzarət edəcək. Dolanışıqlı işə oxşayır. Bu, təxminən bizdə İH başçısının öz oğlunu gömrükdə, vergidə idarə rəisi vəzifəsinə düzəltdirməsi kimi bir şeydir.

Qayınata belə olar. Yoxsa o boyda kral öz kürəkənini heç olmasa olimpiya komitəsinin sədri postuna təyin etmir. Nə var, nə var, adam adicə idman müəllimidir, dərəcəsi yoxdur, əlindən gələn fitness-klubda məşqçilik etməkdir. Hərçənd kral holdinq yarada, kürəkənini maqnat edə, yaxud sistemə keçirib general rütbəsi *(yavaş-yavaş, 3-4 ilə)* verə bilərdi.

Məsələn, o vaxt Səddam Hüseyn iki kürəkəninin ikisinə də general rütbəsi vermişdi. İki qardaş idilər, cavan uşaqlardı, yaşları da çox olardı 33-35. Amma bir gün onlar qayınatalarına xəyanət etdilər. Əslində buna xəyanət də demək olmazdı, qardaşlar görürdülər ki, Səddamın fətvası verilib, Qərb onu aşıracaq və asacaq, ona görə də istədilər ki, öz başlarına bir çarə qılsınlar və təyyarəyə oturub İordaniyaya uçdular. Səddam Hüseyn o işi elə qoymadı, əziz qızlarının diliylə qardaşların başını bişirdi, ölkəyə qayıtmağa razı saldı. Gənc generallar Bağdad aeroportuna enəndən bir az sonra "naməlum qatillər" iki qardaşın ikisini də güllələyib öldürdülər.

Bax, belə qayınatalar da var. Ona baxanda, əlbəttə, kralın kürəkəni oturub-durub Gözəgörünməzə şükür etməlidir ki, yenə bu yaxşıdır, nə vəzifə, rütbə verir, nə də tutub güllələtdirir.

Hərçənd Trampı bilmək olmaz. Sabah Kuşner özünü yaxşı aparmasa, ola bilər ki, Tramp onu "lənət olası federallar"a verib tutdurar. Ya da respublikaçılarla demokratlar köməkləşib Trampın özünü aşırsalar, avtomatik olaraq, Kuşner də fələyin badına gedəcək.

Yeri gəlmişkən, bu saat İvankanın keçmiş boy-frendləri şəhərqırağı pablarda oturaraq ikiqat viski hortlada-hortlada başlarına, gözlərinə döyürlər, deyirlər, vaxtında İvankanı alsaydıq, indi Ağ Evdə təzə açılan idarənin rəisi olardım.

Uzaqgörən olmaq lazım idi, Con. Görürsən, bu qızın papası perspektivli adamdır, nə var motosiklet sürüb baykerlik eləməkdə, al İvankanı, qoy başının altına, gələcəkdə də idarə rəisi ol. Di get, dəbilqəni çıxart, başını Ağ Evin hasarına döy, Kuşner də ümummilli kürəkən və rəis olsun.



# Amerikada Tramp qovğası bitdimi...

## Kürəkənini Ağ Evə gətirən prezidentin ölkəsində sular yenə bulanıqdır

**Amerika prezidenti Donald Trampın hakimiyyətə gəlişindən sonra dünyada sanki fırtına qopub. Yeni prezidentin bir-birinin ardınca verdiyi radikal qərarlar və onun doğurduğu ajiotaj medianın da diqqətindən yayınmadı. Bəs son durum necədir? İlk baxışda elə təəssürat yaranır ki, Tramp eyforiyası artıq yekunlaşıb. Bu, doğrudurmu?**

ABŞ prezidenti Donald Tramp bazar ertəsi Ağ Evdə geniş səlahiyyətlərə malik yeni idarənin yaradılmasını elan etməyi planlaşdırır. "Trend"in xəbərinə görə, "Washington Post" həmin idarənin rəhbəri vəzifəsinə Trampın müşaviri və kürəkəni Cared Kuşnerin təyin ediləcəyi barədə yazıb. Yeni yaradılan idarənin vəzifələrinə federal bürokratik sistemin işinə nəzarət edilməsi və Trampın seçkiöncəsi verdiyi əsas vədlərin yerinə yetirilməsi üzrə işlərin aparılması aid olacaq.

İdarənin işçi ştatına gəlincə, məlumata görə, sabiq kommersiya rəhbərləri burada çalışacaqlar. Onların bir nömrəli vəzifəsi isə hökumətin işini yeni ideyalarla zənginləşdirmək olacaq.

Amma Tramp miqrantlarla bağlı mövqeyində hər hansı geriləməyə yol vermir. O, bu, günlərdə özünün tvitter səhifəsində bildirib ki, ABŞ-a qeyri-qanuni miqrant axını azalıb.

"Daxili təhlükəsizlik naziri Con Kelli sərhəddə böyük işlər görür. Miqrantların sayı olduqca azalıb. Bir çoxları sərhədi keçməyə cəhd belə etmir", D.Tramp yazıb.

Bundan əvvəl ABŞ-ın daxili təhlükəsizlik nazirliyi miqrant axınına qarşı sərhəd nəzarətini gücləndirib.

Bu arada Roma katolik kilsəsinin Meksika üzrə baş yepiskopu Norberto Rivera Carrera bildirib ki, əgər Meksika şirkətləri ABŞ prezidenti Donald Trampın planlaşdırdığı sərhəd divarının inşasına kömək etsələr, bu halda vətənə xəyanət etmiş olacaqlar. Xatırladaq ki, Meksikada bəzi şirkətlər Trampın inşa etməyi planlaşdırdığı sərhəd divarının hazırlanmasında müəyyən funksiyaları öz üzərinə götürməyi planlaşdırır. Bu isə ölkədə ciddi qarşıdurma və müzakirələrə səbəb olub.

Daha bir xəbər isə ondan ibarətdir ki, D.Tramp səhiyyə qanunu ilə bağlı etdiyi dəyişiklikləri Konqresdən geri çəkib. Bu isə iqtisadiyyatı dəstəkləyən siyasətlərin gələcəyi ilə bağlı vəziyyəti qeyri-müəyyən duruma salıb. Son nəticədə dollar dünya bazarında ucuzlaşıb.

Amma bütün bu gəlişmələrlə yanaşı, prezident Tramp tərəfdarları ilə əleyhdarları arasındakı münasibətlər gərginləşib. İki gün öncə hər iki cəbhənin nümayəndələri Amerikanın Kaliforniya ştatındakı Huntington çimərliyində bir araya gələrkən toqquşma yaşanıb və son nəticədə Amerika bayrağı yandırılıb.

Ümumən Donald Trampın ABŞ prezidenti seçildiyi gündən bəri davam edən küçə aksiyaları hər gün daha da şiddətlənir. Tərəflər bir-birini yumruqlayıblar. Bir nəfərin yaralanması ilə bitən hadisədə ciddi vəhşiliklər yaşanıb. Aksiya iştirakçıları bir-birini yumruqlayıblar. "Los Angeles Times"ın məlumatına görə, 200-dən çox insan ABŞ prezidentini dəstəkləmək üçün aksiya keçirib. Nümayiş zamanı naməlum şəxs təşkilatçılardan biri olan qadının gözünə bibər qazı vurub. Dava məhz bundan sonra başlayıb. Hüquq-mühafizə orqanları dava iştirakçılarını qovmaq məcburiyyətində qalıblar. Bir neçə nəfər həbs olunub.

Amma amerikanlarda şok yaradan detal aksiyada Amerika bayrağının yandırılması olub. Çünki bu, onlar üçün qəbuledilməz olaydır və ölkədə ciddi etirazlar yaradıb.

ABŞ prezidenti bugünlərdə Angela Merkellə Ağ Evdə görüşü zamanı Almaniya kanslerinə 375 milyard dollar məbləğində hesabat təqdim edib. "Trend"in verdiyi məlumata görə, bu, NATO-nun Almaniyanın müdafiəsinə xərclədiyi vəsaitə dair Berlinin NATO qarşısındakı borcudur. Almaniya hökumətindəki mənbə borc tələbinin olduğu faktını təsdiq edib, lakin bunun "qəbuledilməz" olduğunu bildirib.

Məlumata görə, Merkelin Vaşinqtona səfərləri zamanı amerikalı lider sənədi şəxsən ona təqdim edib. **"Bu cür tələblər niyyəti başqa ölkəni qorxutmaqdır, lakin kansler bunu sakit qarşılayıb və bu təxribata cavab verməyəcək"**, - adı açıqlanmayan alman naziri qeyd edib.

Quinnipiac Universitetində aparılan araşdırmanın nəticəsinə görə, amerikanların 66 faizi prezident Donald Trampın Rusiya ilə əlaqələrinin müstəqil bir şəkildə araşdırılmasını tələb edir. Rəyi soruşulanların 29 faizi isə buna qarşı çıxıb. Bundan başqa, amerikanların 65 faizi də bildirib ki, Rusiyanın seçkilərdən öncə kampaniyalara qarışması ABŞ üçün olduqca önəmli olub.

Hazırda ABŞ Konqresində Tramp komandası üzvlərinin Rusiya ilə əlaqələri araşdırılır. Rəy sorğusu 16-21 mart tarixləri arasında 1056 amerikalı arasında keçirilib.

ABŞ Milli Təhlükəsizlik İdarəsinin (NSA) keçmiş əməkdaşı Con Schindler prezident Donald Trampın kabinetindəki yüksək vəzifəli şəxslərin Rusiya ilə əlaqələri səbəbindən vəzifəsindən uzaqlaşdırıla biləcəyini deyib.

Avropa.info xəbər verir ki, hazırda təhlükəsizlik mütəxəssisi kimi fəaliyyət göstərən Schindler CBC radiosuna açıqlamasında prezident Trampa qarşı istintaq açıla biləcəyini iddia edib.

**"Trampın seçki kampaniyası qrupunun prezident seçkilərinə müdaxilə etmək üçün Rusiya ilə gizli əlaqə qurması iddiaları səbəbilə istintaq başlansa, bu, Trampın sonu ola bilər. Yalnız ətrafındakı insanlar deyil, prezidentin özü də istintaqa cəlb edilsə, vəziyyət başqa cür ola bilər. İstintaq açılması səbəbilə Tramp istəsə də, istəməsə də vəzifəsindən uzaqlaşdırılacaq"** - deyə, təhlükəsizlik mütəxəssisi bildirib.

Schindler müstəqil istintaq aparılacağı təqdirdə Tramp və kabinetinin Rusiya ilə iddia edilən əlaqələrinin ortaya çıxarılacağını deyib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017

**Elə insanlar var ki, yaz fəslinin gəlişini, havaların isinməsini səbirsizliklə gözləyir. Yaz fəslində bu cür insanların əhvalları yüksək olur, əzmkarlığı artır. Amma elə insanlar da var ki, günəşli hava onlara heç də yaxşı təsir etmir ki, bu da yaz depressiyası adlanır.**

# Yaz depressiyası nədir və ondan necə qurtulaq?

## Adil Qeybulla: "Yaz fəsli sinir, mədə-bağırsaq, allergik xəstəliklərin kəskinləşdiyi dövrdür"

Yaz depressiyası dediyimiz hal insan bədənində fizioloji dəyişikliklərlə bağlıdır. Bu depressiya insanın fizioloji problemlərini üzə çıxardır və nəticədə sinir gərginlikləri formalaşır. Havalar istiləşdikcə qan durulur, bu isə qan təzyiqinin artmasına səbəb olur, bütün orqanlar oyanır, payız və qış dönəmində gizli qalmış problemlər üzə çıxır. Bu isə periodik olaraq sinir sistemini yükləyir, insanlarda əsəb gərginliyi, depressiya, stress kimi problemlər yaranır. Bu hala ümumi olaraq yaz depressiyası deyirlər. Psixoloqlara görə, yazda insan beynində serotonin adlanan maddənin miqdarında azalma baş verir ki, bu da depressiyanın yaranmasının əsas səbəbidir. Yazda yüksək əhval-ruhiyyəsi ilə seçilən insanlarda isə serotoninin miqdarı normaldır. Yaz depressiyasının adətən digər depressiyalara bənzər əlamətlər daşıyan bir xəstəlikdir, insanların kifayət qədər günəş işığı almaması beyində bəzi kimyəvi maddələrin paylanmasını pozur.

Əgər bu mövsümdə hansısa bir insan özünü yorğun, halsız, yuxusuz və bədbəxt hiss edirsə, bu artıq yaz depressiyasının əlamətidir. Yaz depressiyası baharda başlayan və hər il eyni vaxtlarda müşahidə edilən bir depressiya vəziyyətidir. Əlamətlərinə gəldikdə isə daim qayğı, yuxu pozuqluğu, əsəbilik, çəki itirmək, iştahsızlığın və ya əksinə, artması kimi amillər yer alır. Bahar depressiyası yaşayan insanlar məktəbə və yaxud da işə getmək problemi yaşaya bilərlər. Bəzi əlamətlər iki həftədən çox davam etdiyi zaman mütəxəssisə müraciət etmək məsləhətdir. Bahar depressiyası psixoloji bir səbəbdən qaynaqlana biləcəyi kimi tiroid hormonların nizamsızlığından da yarana bilər.

Bahar yorğunluğunun qarşısını almaq üçün günəşin erkən çıxmasından faydalanıb yuxudan tez durmaq lazımdır. Hər gün eyni saatda yatıb-qalxmağa çalışmaq, daha aktiv olmaq, gündə bir neçə dəfə idmanla məşğul olmaq, avtomobil əvəzinə piyada getməyə üstünlük vermək, hazır qidalar əvəzinə təzə meyvə-tərəvəz qəbul etmək lazımdır. Psixoloji baxımdan "baharda hamı xoşbəxt ikən mən niyə beləyəm" demək əvəzinə "həyatımda bir sıra müsbət və mənfi hadisələr olub, hamısı kimi bu da keçəcək" düşünmək özünü daha yaxşı hiss etməyə imkan yaradar. Yaz depressiyasından qurtulmaq üçün yaşadığınız yerin hava almasını təmin etmək, nizamlı yuxu saatlarını müəyyənləşdirmək,



gündə 7-8 saat yatmağa çalışmaq, həftədə ən azı 2 gün açıq havada yerimək və ılıq duş qəbul etmək tövsiyə edilir. Gündə 2-3 litr su qəbul etmək yaz yorğunluğundan qorunmaq və immunitet sistemini gücləndirmək üçün vacibdir.

Qeyd edək ki, yazın gəlişi yalnız yaz depressiyası gətirmir, həmçinin havaların isinməsi təbiəti canlandırdığı kimi bir sıra xəstəlikləri də canlandırır. Yazda ən çox rast gələnən problemlər içərisində ilk sırada allergiya yer alır. Statistikaya görə, dünyada hər 10 nəfərdən 2-si allergiyadan əziyyət çəkir. Hətta dünya alimləri XXI əsri "allergiya əsri" adlandırıblar. Havada uçuşan polen adlanan çiçək tozları yaz mövsümündə allergik xəstəliklərə səbəb olan ən önəmli amillərdir. Onun ən çox təsir etdiyi orqanizm isə insanların gözləridir. Mövsümlə bağlı allergiya nəticəsində gözdə qaşınma, qızarıqlıq və reaksiyaya bağlı olaraq damar genişlənməsi meydana gəlir. Bu baxımdan, şiddətli yanma, işığa baxa bilməmək, bulanıq görmə yaranır. Yaz mövsümü ilə bağlı dəyişikliklər uşaqlara da təsirsiz ötüşmür, bu mövsüm uşaqlar üçün "xəstəlik mövsümü" sayılır. Bu mövsümdə uşaqlarda artan əsas xəstəliklər allergiya və astmadır. Astma ilə bağlı xroniki öskürəklə yanaşı, suçiçəyi də müşahidə edilir. Həmçinin iltihablı göz axıntıları infeksiya əlaməti ola bilər. Eləcə də faringit, virusların səbəb olduğu tənəffüs yolu infeksiyaları, ishallara da çox rast gəlinir. Bu aylarda havaların dəyişməsi, viruslara və polenlərə bağlı olaraq uşaqlara təsir edən xəstəliklər daha da çoxalır. İlk olaraq valideynlər uşaqları istiyə uyğun geyindirməli, tərləməkdən qorumalı, uşaqların düzgün qidalanmasını təşkil etməlidir. Uşaqlara bu fəsildə ağartı məhsulları verilməli və gündə yarım saat günəşə çıxarıb gəzdirilməlidir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla yaz depressiyasının xəstə şəxslərdə və yaşlı adamlarda özünü daha tez göstərdiyini dedi:** "Depressiya bu gün cəmiyyətdə xeyli sosial amillərlə bağlıdır. Sadəcə olaraq, yaz fəsli sinir xəstəliklərinin, mədə bağırsaq, allergik xəstəliklərin kəskinləşdiyi dövrdür. Çünki yaz fəslinə keçəndə el arasında buna qanın qaynayan vaxtı deyirlər. Əslində bu, orqanizmdə neyrofizioloji reaksiyaların tezləşməsi, qomonal fonun dəyişməsi kimi dəyişikliklər, damarların sıxılıb atılması və sairə ilə özünü göstərir. Sağlam adamlarda mühafizə güclü olduğundan belə də təsir etmir. Amma xəstə, yaşlı adamlarda bu dərhal özünü göstərir. Təzyiqi olan adamların təzyiqi yüksəlməyə meyllənir, müxtəlif pozulmalar müşahidə edilə bilər ki, bunlardan ən çox müşahidə olunan depressiv vəziyyətlərdir. Depressiv vəziyyətlər Azərbaycan cəmiyyətində müəyyən qədər sosial amillərlə bağlıdır. Amma yaz vaxtı bunların güclənməsi həm də fəsil dəyişməsi ilə bağlıdır. Mədə-bağırsaqda xora xəstəliyi olan şəxslərdə onun kəskinləşməsi meylləri qeyd olunur. Ona görə də bu cür şəxslər yaxşı olardı ki, bu dövrdə öz həkimi ilə məsləhətləşib profilaktik müalicə kursu alsınlar".

❑ **Günel MANAFLI**

# "Azəryolservis"in əməkdaşı "ASAN Kommunal"ın işini iflic edir

## "Tikinti işlərinə dair sənədləri "vahid pəncərə" prinsipi əsasında aldığımdan məmurun tələb etdiyi 5 min manatı verməmdim, o isə mülkiyyətimi dağıtdı"













**Ölkədəki məmur özbaşınalığı Azərbaycanın ən böyük problemlərindən biri olaraq qalır. Vətəndaş Mətləb Hacıbaba oğlu Nəsibov da məmur özbaşınalığı ilə üz-üzədir. M.Nəsibov bildirir ki, xüsusi mülkiyyətində olan Binəqədi rayonu, S.S.Axundov küçəsi 457 B ünvanında yerləşən 30 kv.m qeyri-yaşayış sahəsinə aidiyyəti təşkilatların müvafiq razılıqları əsasında şəxsi vəsaiti hesabına kanalizasiya xətti çəkdirib. Bu il martın 23-də "Azəravtoyol" ASC-nin tabeliyində olan "Yolların Mühafizəsi Xidməti"nin Binəqədi rayon bölməsinin rəisi Elşad adlı şəxs xüsusi mülkiyyət sahibinə heç bir məlumat verilmədən şəxsən özü həmin ünvanda əvvəlcədən çəkilmiş kanalizasiya borularını yerdən qazaraq çıxardıb, onları tamamilə yararsız vəziyyətə gətirib.**

Mülkiyyət sahibinə isə mesaj yollayıblar ki, "get, kimə istəyirsən, de".

**M.Nəsibov baş verən özbaşınalıqla bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə müraciət edib. Həmin müraciətində şikayətçi yazır:** "Bildirmək istəyirəm ki, faktla bağlı Elşad adlı şəxsə tərəfimdən hərəkətlərinin qanunsuz və əsassız olması barədə etiraz edilib. Onun hərəkətləri korrupsiya halı kimi qiymətləndirilməlidir. Belə ki, bu işlərin hamısını "vahid pəncərə" prinsipi əsasında "ASAN Kommunal" Mərkəzində keçirdiyimdən onun məndən tələb etdiyi 5 min manat məbləğində pulu verməmdim və bu cür qanunsuzluqlar törətdi. 24 mart 2017-ci ildə yenidən həmin ərazidə boru xətlərini əvvəlki yerində bərpa etdikdə, Elşad adlı həmin şəxs yenidən qanunsuz əməllərini davam etdirərək, heç bir rəsmi bildiriş və xəbərdarlıq etmədən kanalizasiya borularını sındırdı. Mənə təkrarən maddi zərər vurdu. Bu arada asayişi bərpa etməyə çalışan polis əməkdaşlarının gözləri qarşısında cəmiyyətə açıqca hörmətsizlik nümayiş etdirdi, qərəzli şəkildə vəzifə səlahiyyətlərini aşdı, qulluq funksiyasına aid olmadan qanunsuz hərəkətlərini davam etdirdi. Bu halla bağlı Daxili İşlər Nazirliyinin 102 xidmətinə müraciət etmişik. Sınıdırılmış kanalizasiya borularından axan çirkab sularının Binəqədi Polis İdarsinin də istifadəsində olan yeganə yola axmasına səbəb olub. Bildirmək istəyirəm ki, ölkə başçısının müvafiq sərəncamları ilə sahibkarlıq subyektlərinə qarşı aparılan qanunsuz yoxlamaların ləğv edildiyi dövrdə, bu yaxınlarda açılışını qeyd etdiyi "ASAN Kommunal" xidmətlərinin fəaliyyətində biz sahibkarların maneəsiz yararlanmağı nədənsə özləri kiçik, istəkləri isə böyük olan, səlahiyyət hədlərini və qulluq funksiyalarını unudan Elşad kimi "məmur"ların aparılan bu islahatlara məqsədli şəkildə kölgə salması və onların əməllərinin cəzasız qalması, yuxarıda qeyd etdiyim kimi, prezident İlham Əliyevin sərəncamına biganəlik kimi qiymətləndirilir".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bakıda baş redaktoru qarət etdilər



**Hadisə Xətai rayonu, Məhəmməd Hadi küçəsi 4 ünvanında yerləşən gözəllik salonlarının birində qeydə alınıb. SalamNews-un verdiyi məlumata görə, "ModaManiya" jurnalının baş redaktoru olan Pərvin Bağırova ərazi üzrə Xətai Rayon Polis İdarəsinin 34-cü polis bölməsinə ərizə ilə müraciət edərək gözəllik salonunda divanın üzərinə qoyduğu pul kisəsinin oğurlandığını bildirib.**

Xanım jurnalistin sözlərinə görə, kisədə 200 manat pul, Asan imza kartı, bank kartları və digər sənədlər olub.

Oğurluq faktı ilə bağlı 34-cü polis bölməsində təhqiqat araşdırmalarına başlanılıb. Bölmədən bildirdilər ki, hələlik saxlanılan şəxs yoxdur, ancaq bu istiqamətdə intensiv əməliyyat-axtarış tədbirləri davam etdirilir, kamera görüntüləri nəzərdən keçirilir.

Qeyd edək ki, zərərçəkmiş Pərvin Bağırova İtaliyanın "İstituto di Moda Burgo" Universitetinin məzunu, "M Fashion School" məktəbinin yaradıcı-təsisçisi və "Modamaniya" online dəb jurnalının təsisçisi, baş redaktorudur.



## Bakıda gecə klubunda qətl törədildi

**Bakıda gecə klubunda qətl törədilib. APA-nın məlumatına görə, martın 25-də Xırdalan şəhərinin "Quşçuluq" yaşayış sahəsində yaşayan Rahil Məlikovun evində həmyerlisi, dostu Telman Məmmədovun üzərində zorakılıq əlamətləri olan meyiti tapılıb.**

Araşdırmalar zamanı T.Məmmədovun paytaxtın Nəsimi rayonu ərazisində yerləşən klublardan birində oranın inzibatçısı - Bakı şəhər sakini Fərhad Musayevlə aralarında baş verən münaqişə zəminində sonuncu tərəfindən yumruqla vurulduğu və yıxılması nəticəsində başından xəsarət alması, sonra dostu ilə birgə onun evinə gələrək orada öldüyü müəyyən edilib.

Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində F.Musayev tutulub.

## Sumqayıtda avtomobil elektrik dirəyinə çırpıldı, 1 nəfər öldü

**Sumqayıtda avtomobilin elektrik dirəyinə çırpılması nəticəsində 1 nəfər ölüb. "Report" Daxili İşlər Nazirliyinin rəsmi saytına istinadən xəbər verir ki, Sumqayıt şəhəri ərazisində şəhər sakini İsrail Fərəcullayev idarə etdiyi "Mercedes" markalı avtomobili yolun kənarındakı elektrik dirəyinə vurub. Nəticədə sərnişini Rövşən Yusifli hadisə yerində ölüb.**

Sumqayıt Şəhər Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Bakıda quldurluğa məruz qalan sürücü hücum edənlərdən birini bıçaqladı

**Bakıda 4 naməlum şəxs taksi sürücüsünün boğazına kəndir bağlayıb onun avtomobilini əlindən almaq istəyiblər. "Report"un Daxili İşlər Nazirliyinin rəsmi saytına istinadən verdiyi xəbərə görə, Bakının Nizami rayonunun H.Əliyev prospektində Bakı şəhər sakini Vahid Mövlazadənin idarə etdiyi "Mercedes" markalı avtomobilə sərnişin qismində oturan 4 naməlum şəxs metronun "20 Yanvar" stansiyasına gedəcəklərini bildiriblər. A.Məhərrəmov küçəsində onlar sürücünün boğazına kəndir dolayıb, bıçaqla hədələyərək avtomobildən düşməsini tələb ediblər.**

V.Mövlazadə avtomobildən düşərkən özünə məxsus bıçaqla onlardan birinin ayaq nahiyəsinə xəsarət yetirib və səs-küy yarandığından həmin şəxslər hadisə yerindən qaçıblar.

Görülmüş əməliyyat-axtarış tədbirləri ilə hadisəni törətməkdə şübhəli bilinən paytaxt sakini Qardaşxan Abdullayev, Şirvan şəhər sakini Ceyhun Məmmədzadə, Cəlilabad rayon sakini Rəfayel Əlizadə Bakı Şəhər Baş Polis İdarəsi və Nəsimi Rayon Polis İdarəsinin 19-cu Polis Bölməsinin əməkdaşları tərəfindən tutulub, digər 1 nəfər isə müəyyən edilib.



## Lənkəranda evə basqın nəticəsində yaralanan baş həkim dünyasını dəyişdi

**Ötən həftə Lənkəran rayonunun Xolmili kəndində gecə saatlarında evə edilən basqın nəticəsində ağır xəsarət alan kənd ambulatoriyasının baş həkimi Vahab Səfərov martın 27-də vəfat edib.**

Mərhumun yaxınlarının "Report"a verdiyi məlumata görə, bir neçə gün öncə paytaxt klinikalarının birində müalicə alan həkimə həmkarlarının etdiyi müalicə səmərəsiz olub. Günorta saatlarında dünyasını dəyişən həkimin cənazəsi yaşadığı evə gətirilib.

Mərhum kənd qəbiristanlığında dəfn olunacaq.

Qeyd edək ki, ötən həftə 67 yaşlı Xolmili kənd sakini Səfərov Vahab Xalıq oğlu şəxs və ya şəxslər tərəfindən basqına məruz qalıb və küt alətlə başına zərbələr endirilib. Yaxınları tərəfindən Lənkəran Rayon Mərkəzi Xəstəxanasında, sonradan isə paytaxtdakı klinikalardan birində edilən müalicələrə baxmayaraq həkimin həyatını xilas etmək mümkün olmayıb.

Xəsarət alan Vahab Səfərov uzun illərdir kənd ambulatoriyasının müdiri vəzifəsində işləyib.

Faktla bağlı Lənkəran Şəhər Polis Şöbəsində araşdırmalara başlanılıb.

## Novruz tonqallarında 7 uşaq xəsarət alıb, bir nəfərin isə hər iki üzü yanıb

**Novruz günlərində qalanan bayram tonqallarında 7 uşaq yüngül, 1 gənc isə ağır yanıq xəsarətləri alıb. Bunu "Report"un sorğusuna cavab olaraq Respublika Yanıq Mərkəzindən bildiriblər.**

Məlumata görə, martın 19-dan martın 25-dək ən kiçiyi 3 yaşlı olmaqla, 7 nəfər uşaq müxtəlif yanıq xəsarətləri ilə mərkəzə yerləşdirilib: "Onlar Bakının müxtəlif ərazilərində yandırılan bayram tonqallarında yanıq xəsarətləri alıblar. Uşaqlara ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıblar. 17 yaşlı oğlan isə üzünün hər iki nahiyəsindən yanıq xəsarəti alıb. Gənc oğlan stasionar yardım göstərildikdən sonra bu gün evə buraxılıb".

## Quba-Qusar yolunda iki avtomobil toqquşdu -ölənlər var

**Quba-Qusar yolunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın şimal bürosunun xəbərinə görə, hadisə yolun 7-ci kilometrliyində qeydə alınıb.**

40 BN 070 dövlət nömrə nişanlı, "VAZ 2107" markalı və 10 DU 314 dövlət nömrə nişanlı, BMW markalı avtomobillərin toqquşması nəticəsində iki nəfərin öldüyü bildirilir.

İlkin məlumata görə, onların hər ikisi "VAZ 2107"-də olan şəxslərdir.

Faktla bağlı araşdırma aparılır.

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəifliklədən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

## Elan

**Əsgərov Cabir Azadxan oğluna məxsus 0.13 h. həyətyanı torpaq sahəsinin JN-177-A, kod:80601004 sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Etibarlı Sabir Abdul oğluna məxsus olan Xəzər rayonu, Mərdəkan qəsəbəsi 2116 saylı bağ sahəsinin sənədləri (müqavilə) itdiyi üçün etibarsız sayılır.**

***

**Ağayev Kamal Seyidəli oğluna məxsus Xəzər rayonu Mərdəkan qəsəbəsi 2116 A saylı bağ sahəsinin sənədləri (müqavilə) itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 62 (6676) 28 mart 2017

# Turistlərin Bakıda Novruzlu günləri - əməkdaşımız paytaxt qonaqlarını söhbətə çəkdi



## Əcnəbilərin Azərbaycan ziyarətinin büdcəyə təsiri varmı?

## **İqtisadçı ekspert:** “Ölkəyə gələn turist dövlət büdcəsinə vizadan başqa birbaşa heç bir ödəniş etmir, amma...”

**Azərbaycanda Novruz tətili bitdi. Bununla belə, paytaxt küçələri hələ də turistlərlə doludur. Bu il bayram günlərində ölkəyə gələnlər isə əsasən Rusiya, Türkiyə, İran və ərəb ölkələrinin vətəndaşlarıdır. Onların arasında da iranlı turistlər üstünlük təşkil edir. Bakı Bulvarı, İçərişəhər və demək olar ki, bütün ticarət mərkəzlərində iranlı turistlərlə rastlaşmaq mümkündür. Biz də turistlərin necə istirahət etdiyini, nələr aldığını öyrənmək üçün kiçik bir müşahidə apardıq.**





Ölkəmizə gələn turistlərin paytaxtın tarixi abidələri ilə zəngin olan İçərişəhərə mütləq baş çəkdiyini nəzərə alaraq yolumuzu ilk olaraq İçərişəhərdən saldıq. Burada bir canlanma vardı. Turistlərin bəziləri bələdçi köməyi ilə gəzir, ətraf mühitlə tanış olur, bəziləri isə sərbəst halda gəzirdi. Təbii ki, hər bir turist gəldiyi ölkədən ona xoş bir xatirə qalmasını istəyir. Ona görə də turistlər daha çox bu ölkəyə məxsus milli atribut və ya suvenirlər alırlar. Satışda olduqca maraqlı, milli adət-ənənələrimizi, tariximizi əks etdirən Azərbaycana məxsus milli gəlinciklər, çalğı alətləri, milli geyimlər, baş örtükləri, Qız qalasının kiçik maketləri, balaca muğam triosunun kuklaları, üzərində Bakının və İçərişəhərdəki tarixi binaların təsviri çəkilmiş qablar, fincanlar, təsbehlər, breloklar üstünlük təşkil edirdi. Öyrəndik ki, qablar, fincanlar və bu kimi suvenirlər İçərişəhər Qoruq İdarəsi tərəfindən sifarişlə hazırlanır. Rəsm əsərləri, təsbehlər və bəzi əl işləmələri sənətkarlar tərəfindən təqdim edilir.

**Satıcılarla söhbətimiz zamanı öyrəndik ki, ölkəmizə gələn qonaqlar daha çox kiçik suvenirlər alırlar. Suvenir satıcısı Namiq Abbasov paytaxtın rəsmi əks olunan maqnitlərin daha çox alındığını dedi:** “Daha çox iranlı turistlər alış- veriş edir. Onlar paytaxt və müxtəlif tarixi yerlərin təsviri əks edilən maqnitlər alırlar. Bu maqnitlərin qiyməti 3 manatdan başlayır. Mənzərəli boşqablar isə 5 manatdır. Onlar yaxşı pul xərcləyirlər. Bəzən olur ki, gün ərzində bütün suvenirlərimi satıram. Təki belə turistlər həmişə çox olsun”.

**Xalça satıcısı Elçin Muradov da turistlərdən razı idi:** “Bu Novruz bayramı bizim üçün də əsl bayram oldu. Kələğayılar, suvenir xalçalar satışı artdı. Alanlar daha çox ərəblər və iranlılardır. Türklər və ruslar ucuz mala qaçırlar. Düzdür, iranlılar bir az dağınıqdır, yəni məsələn, gəlib kələğayıları açıb tökürlər, amma sonda alırlar”.

**Daha sonra yolumuzu bulvardan saldıq. Burada Park Bulvar ticarət mərkəzində də ərəb, İran turistlərin sayı inanılmaz dərəcədə çox idi. Onlardan kimisi paltar alır, kimisi restoranlarda yemək yeyir, kimisi isə qızıl mağazalarına baş çəkirdi. Ailəliklə İrandan gəldiyini deyən Süheyla Maqsudi hər il Novruzu Azərbaycanda qarşıladığını dedi:** “Biz buranı çox sevirik. Hər il Novruz bayramını burada qeyd edirik. Bakıda bizim dostlarımız var”.

**Söhbətə qatılan həyat yoldaşı Armin Maqsudi də Bakını bəyəndiyini dedi:** “Buranın yeməkləri, şirniyyatları dadlıdır. Aprelin 1-dək Bakını gəzəcəyik. Sonra Qəbələyə gedəcəyik. Azərbaycan maraqlı ölkədir. Bayram burada şən keçir. Biz Bakıdan suvenir, yaxşı paltarlar aldıq. Gələn Novruzda da bura gəlməyi Allah bizə nəsib edər”.







Qeyd edək ki, Ümumdünya Turizm və Səyahət Şurasının (World Travel & Tourism Council, WTTC) mart hesabatında 2016-cı ildə Azərbaycanın turizm və səyahət sektoruna 479,5 milyon manat yatırım qoyulduğu, 2017-ci ildə kapital qoyuluşunun həcminin 6,2 faiz, qarşıdakı 10 ildə isə 4,9 faiz artaraq 825,1 milyon manata çatacağı qeyd edilib. Turizm və səyahət sektorunun milli investisiyaların ümumi həcmindəki payı 2017-ci ildəki 2,9 faizi ötərək 2027-ci ildə 3,3 faizə çatacaq. WTTC təşkilatının məlumatlarına əsasən, 2016-cı ildə “Visitor Exports” (əcnəbi ziyarətçilərin məsrəfləri) göstəricisi 4 milyard 552,2 milyon manat (2 milyard 863 milyon dollar, yaxud 16,9%) olub. Xatırladaq ki, “Visitor Exports” göstəricisi beynəlxalq turist məsrəfləri üzrədir və əcnəbilərin nəqliyyat və səfər turizminə aid istehlakını səciyyələndirən xərcləri daxil olmaqla, istər işgüzar, istərsə də şəxsi məqsədlərlə xərclədikləri vəsaiti əhatə edir. WTTC təşkilatında gözləyirlər ki, 2017-ci ildə bu göstərici 8,1% artacaq, ölkə isə 2 milyon 758 min nəfər xarici turisti qəbul edəcək. 2027-ci ilədək “Visitor Exports” göstəricisi daha 6,5% artacaq. Belə ki, 10 ildən sonra artıq ölkəyə 4 milyon 254 min turist səfər edəcək ki, onlar da 9 milyard 205,3 milyon manat (5 milyard 769,5 milyon dollar) pul xərcləyəcəklər.

İqtisadçı ekspert Natiq Cəfərli ölkəyə gələn turistlərin dövlət büdcəsinə birbaşa yox, dolayı yolla müsbət təsiri olduğunu dedi: “Daha çox turistin ölkəyə gəlməsi ölkə iqtisadiyyatına daha çox xeyir verir. Sadəcə olaraq, turist sayının əvvəlki illərdə çox az olması indi gələn turistlərin bizə daha çox görüntü verməsinə səbəb olub. Müqayisə üçün deyim ki, Novruz bayramı günlərində Azərbaycana gələn turistlərin sayından təqribən 6-7 dəfə çox iranlı turist Gürcüstana səfər edib. Çünki Gürcüstana viza problemi yoxdur. Turistlərin ölkəmizə gəlməsi təbii ki, büdcəyə birbaşa təsir göstərmir. Amma dolayı yolla təsirləri kifayət qədər çoxdur ki, alış-veriş mərkəzləri, kafelər, restoranlar nə qədər çox dövriyyə edirlərsə, nə qədər çox pul qazanırlarsa, növbəti mərhələdə gəlirlərindən daha çox vergi verirlər. Bu yolla dövlət büdcəsinə təsir göstərir. Yəni ölkəyə gələn turist dövlət büdcəsinə vizadan başqa birbaşa heç bir ödəniş etmir. Çünki ancaq viza alınması üçün müəyyən ödəniş olur ki, bu da birbaşa dövlət büdcəsinə keçir. Bu da cüzi ödənişdir. Amma turistlərin sayının artması əhali üçün, bu sahələrdə çalışan insanlar, şirkətlər üçün əlavə gəlir mənbəyidir ki, bunun özü də iqtisadiyyatın çarxlarının daha sürətlə dönməsinə, bu sahədə çalışan insanların gəlirlərinin artmasına təbii ki, müsbət təsir göstərir”.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**



## Bakıda qaz problemi- səbəbi nədir?

### **İbrahim Kərbəlayev:** “Əgər hər hansı bir rayonda problem varsa, bizə məlumat versinlər, problemi həll edək”

**Havaların isinməsinə baxmayaraq, Bakıda və bölgələrdə yenidən qaz problemi yaşanır. Bu barədə Bakı sakinləri sosial şəbəkələrdə şikayətlərini bildiriblər. Narazı sakinlərin sözlərinə görə, təbii qazın verilişində problemlər daha çox parniklərin olduğu rayonlardadır. Hətta bununla bağlı facebook sosial şəbəkəsində “qazımız hanı” haştaqı da yaradılıb. Xeyli sayda istifadəçilər bu haştaq altında gün ərzində qazın verilişində yaranan fasilələrdən, gecələr təzyiqin həddən artıq aşağı olmasından şikayətləniblər.**

Söylənilənlərlə bağlı “Azəriqaz” İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbəlayev “Yeni Müsavat”a bildirib ki, onlara problemlərlə bağlı şikayət daxil olmayıb: “Bizdə belə bir məlumat yoxdur. Harada qazın təzyiqi zəifdirsə, sakinlər ”qaynar xətt"imizə müraciət edirlər, əməkdaşlarımız tərəfindən əraziyə baxış keçirilir. Nəticədə isə qaz təchizatında tənzimləmə işləri aparılır və tənzimlənir. Əgər hər hansı bir rayonda problem varsa, bizə məlumat versinlər, problemi həll edək",-deyə İ. Kərbəlayev bildirdi.

**❑ Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 62 (6676) 28 mart 2017



# Çərşənbə axşamı aşiq olmaq üçün ən ideal gündür

İngiltərənin "The Sun" qəzeti insanların iş qrafikini həftənin günlərinə uyğun bölüb. Həmin qrafikə görə, həftənin çərşənbə axşamı günü insanların ən məhsuldar günüdür. Həftənin çərşənbə günü isə insanların vurulması, aşiq olması üçün idealdır. Amerikada 8 min subay arasında aparılan araşdırmada bu, özünü təsdiqləyib. Belə ki, rəyi soruşulanlar deyib ki, ilk görüş uğurlu keçirsə, iki gün sonra növbəti görüş üçün də vədələşmə baş tutur və xoşbəxt bir münasibətin təməli qoyulur. Həftənin cümə günü isə bağlı nəticə isə ondan ibarətdir ki, insanlar bu tarixdə həftə sonunun da gətirdiyi rahatlıqla həttə siqareti də atmaq haqda düşünür. Şənbə gününə gəlincə... Burada söhbət təkcə əyləncə saatlarından getmir. Alimlər həmin gün həddən artıq alkoqol qəbul etməyə qarşı çıxır. Belə ki, insanların alkoqollu halda maşın idarə etməsi qəzaların sayını 70 faiz daha artırır. Bundan başqa, hamilə qadınlara məhz həmin gün doğum etmək məsləhət görülür. Burada söhbət qeysəriyyə əməliyyatı ilə uşaq dünyaya gətirməkdən gedir. Çünki həmin gün doğulan uşaqlar digərləri ilə müqayisədə daha çox uğur qazanır. Bazar gününə gəlincə, həmin gün insanlara evdə yemək hazırlamaq məsləhət görülmür. Çünki bu, ciddi stress yaradır.

# Qadınlar hər il 2 kilo kosmetika yeyirlər

Həkimlər qadınlara kosmetikadan mümkün qədər az istifadə etmələrini məsləhət görürlər. Lenta.ru saytının məlumatına görə, amerikalı alimlərin araşdırması il ərzində 1 qadının kosmetikadan 2,5 kiloqramadək kimyəvi maddə udduğunu müəyyənləşdirib. Araşdırma müəlliflərinin sözlərinə görə, əksər qadınlar 1 gündə orta hesabla 20 müxtəlif kosmetik preparatdan istifadə edir.

Biokimyaçı Riçard Bensin sözlərinə görə, bu preparatlar bir-birinə qarışan zaman insan üçün dəhşətli nəticələr verə bilər. Məsələn, adi dodaq boyası ağız boşluğuna düşən zaman tüpürcəkdə və mədədə uzun müddət qalan fermentlərə parçalanır.



Qırışlara qarşı kremlərin tərkibində olan kimyəvi maddələr də dəriyə çəkilən zaman heç bir maneə olmadan qana keçir.

# Həftə sonu iki saat artıq yatmısızsa...

**İstirahət günləri normadan artıq yatmaq bəlkə də insanların ən zəif yerlərindən biridir. Alimlər artıq yuxunun piylənməyə səbəb olduğunu bildirirlər. Hər hansı şəxs nə qədər çox yatırsa, bir o qədər də piylənmə ilə əlaqədar xəstəliklər qazanır.**

Mütəxəssislərin rəyinə görə, iş və istirahət günlərindəki yuxu müddətinin fərqi bədən üçün təhlükə törədir. Onlar bunu 800-dən çox könüllü insan üzərində araşdıraraq sübut ediblər. Əvvəlcə könüllülərin çəkisi, boyu ölçülüb, onlardan qan nümunələri götürülüb. Sonra könüllülər arasında neçə saat yatmaları haqqında sorğu aparılıb və maraqlı nəticələr alınıb.

Məlum olub ki, adi iş günü ilə müqayisədə istirahət günü iki saat artıq yatanların çəkiləri artır və onlarda diabet xəstəliyinə meyillilik yaranır. Mütəxəssislər vəziyyətdən çıxış yolu üçün fəal həyat sürməyi, səhər tezdən idman zallarına getməyi məsləhət bilirlər.





# Katarakta əməliyyatı olanlar daha uzun yaşayır

Amerikan Oftalmoloji Dərnəyinin araşdırmasına görə, katarakta əməliyyatı olan insanlar digərlərinə nisbətən daha çox yaşayır. 1.5 milyon insan üzərində aparılan araşdırmanın nəticəsinə görə, katarakta əməliyyatı olan xəstələrin yaşam səviyyəsinin artmasına görə bu nəticəyə gəliblər. Xüsusən də 65 yaşından sonra özünü göstərməyə başlayan katarakta yaşayış səviyyəsini yüksəldir. Eyni yaşda, oxşar sağlıq durumuna sahib olan xəstələr arasında aparılan statistikaya görə, katarakta xəstələrinin ölüm faizi əməliyyat olmayanlarla müqayisədə 30 faiz daha azdır. Bu əməliyyatdan keçən şəxslərdə daha sonradan ev qəzalarının sayı artır, dərmanlarını əskiksiz və daha doğru istifadə edirlər, gündəlik həyat tərzləri daha da aktivləşir. Bundan başqa, həmin şəxslərdə yaşam səviyyəsi ilə yanaşı, psixologiya da düzəlir.




**QOÇ** - Bürcünüz üçün olduqca mistik gündür. Təsir altına düşməkdən uzaq olun. Hər hansı ekstrasensə, münəccimə və ya falçıya müraciət etməyin. Bütün proseslərə realistcəsinə yanaşın.

**BUĞA** - Daxili süstlüyünüz nahardan sonra səngiməyə başlayacaq. Əməkdaşlıq etdiyiniz adamlarla münasibətləri səmimiyyət üzərində qurun. Heç kimi aldatmayın. Bəxtinizdə pul da var.

**ƏKİZLƏR** - Martın bu dəyişkən təqvimi sizin üçün müəyyən mənada gərgin keçə bilər. Odur ki, üzərinizə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışın. Mübahisələrdən uzaq olun.

**XƏRÇƏNG** - Təxminən saat 13-ə qədər bütün işlərinizi təxirə salın. Çünki bu ərəfədə hansısa cəhdinizin baştutma ehtimalı yoxdur. Sonrakı saatlarda isə maraqlı hadisələrin şahidi olacaqsınız.

**ŞİR** - Rəqiblərlə rastlaşma ehtimalınız böyükdür. Çalışın ki, bu hallarla üzləşəndə mübahisəyə meyl etməyəsiniz. Hava qaralanda evdə, otaq şəraitində olmağa çalışın. Təkliflərdən imtina edin.

**QIZ** - Şəxsi büdcənizdəki problemli durum istər-istəməz ovqatınıza da mənfi təsir göstərir. Bununla yanaşı səhhətinizi də qorumağa çalışın. Riskli hərəkətlərdən uzaq olun.

**TƏRƏZİ** - Astroloji göstəricilər saat 12-15 arası əsas diqqətinizi maliyyə məsələlərinə yönəltməyinizi tövsiyə edir. Gələn ay ərzində görəcəyiniz işləri indidən sistemləşdirin.

**ƏQRƏB** - Bir qədər qalmaqallı gündür. Bunun üçün ilk növbədə kənar təsirlərə aludə olmamalısınız. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin. Əsas enerjinizi fəaliyyətə yönəldin.

**OXATAN** - İşgüzar sövdələşmələr üçün olduqca əhəmiyyətli təqvimdir. Aldığınız istənilən təklifi razılıqla qarşılayın. Perspektivli pul sövdələşmələrində də iştirakınız vacibdir.

**OĞLAQ** - Buraxdığınız səhvlərin xiffətini çəkməkdənsə, gələcəyə nikbin baxın. Çünki bu gün əksər sahələrdə sizə böyük irəliləyişlər bəxş edəcək. Nahardan sonra səfərə çıxmağa dəyər.

**SUTÖKƏN** - Saat 12-yə qədərki ərəfəni nəzərə almasaq, hər mənada uğurlu tarixdir. Maliyyə məsələlərində, əməkdaşlıq zəminində xeyli irəliləyişləriniz gözlənilir. Təzə xəbərlər də eşidəcəksiniz.

**BALIQLAR** - Səhhətinizdə problemlər olduğundan fəaliyyətinizdə müəyyən passivlik mümkündür. Bu isə hansısa irəliləyişin qarşısını ala bilər. Ailə üzvlərinizlə mehriban davranın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ər-arvadın münasibəti pisləşəndə.... borcları da artır



Son illər ər-arvad və ya sevgililər arasındakı münasibətlər daha çox "tükənmişlik sindromu" ubcatından bitir. Sözügedən sindrom insanların həyatına girəndə beyin bədbəxtləşməyə başlayır. Psixoloqların fikrinə görə, əksər cütlüklər bu vəziyyətdən çıxmaq üçün alış-verişə meyl edir. Özünü bədbəxt hiss edənlər demək olar ki, alış-veriş mərkəzlərindən çıxmırlar. Öz münasibətlərindən zövq almayanlar əllərində dolu torbalar olanda daha xoşbəxt olurlar. Və bir müddət sonra bu, vərdiş halına dönür. Münasibətlər pozulduqca cütlüklərin borcları da artmağa başlayır. Çünki xərcləri və kredit kartları da artır. Özlərini yaxşı hiss etmək üçün alış-verişə aludə olan cütlüklərə əsas məsləhət isə bir-birilərini sevmələri, düşdükləri vəziyyətdən çıxış yolları axtarmaqdır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100